Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

6 SENTYABR 2019-cu il

№ 157 (4055)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# AZƏRBAYCANA «MANAT SELİ» GƏLİR

*Maaş və müavinətlərin artımı real sektorun inkişafını necə sürətləndirəcək?*

■ səh. 7 ■

Qarabağ probleminin həlli üçün tarixdə misli olmayan şans açılır...

■ səh. 9 ■

Usubov-Patruşev müzakirələri - Rusiya-Azərbaycan informasiya təhlükəsizliyi əməkdaşlığının yeni dövrü...

■ səh. 3 ■

Köçəryanın taleyi Ermənistan Konstitusiyasının 35 və 135-ci maddələri arasında - Putin isə Paşinyanı sıxmaqda...

■ səh. 6 ■

Qəbələ İcra Hakimiyyətinin 4 tenderini udan MMC - məsələ sosial şəbəkələrdə niyə müzakirəyə çıxıb...

■ səh. 10 ■

Kartof istehsalı sürətlə artır, bazarlarımızda qiymət isə...

■ səh. 12 ■

Banklara qoyulan depozitlər artır, banklar isə ancaq kreditdən yüksək faiz gəlirləri götürmək barədə düşünür...

■ səh. 10 ■

Uğurlu nəticə göstərməyən məktəblər barədə hansı ciddi ölçülər götürülə bilər...

■ səh. 12 ■

Son dövrlər çəkilmiş bədii filmlər kinoteatrlarda təqdimata niyə çıxarılmır?

■ səh. 15 ■



■ səh. 8 ■

## Moskva-İrəvan münasibətlərində böyük çat - vəziyyət Rusiya televiziyalarının dayandırılması tələbinə çatdı...



Müxalifəti sosial islahatlar paketinə qarşı yönəldən əsas motiv - əhali yaşayışının yaxşılaşması radikallara sərf etmir...

■ səh. 5 ■



Azərbaycan-Rusiya sərhədlərində birgə infrastruktur layihələr - münasibətlərin yeni səviyyəsini göstərən məqam...

■ səh. 3 ■

Rusiya XİN Paşinyanı «Qarabağ Ermənistandır» şüarına görə vurdu...

■ səh. 6 ■

■ səh. 2 ■

"Bəzi jurnalistlərin də KİVDF-ni qaralayan radikal mühacirlərin yolu ilə getməsi təəssüfləndiricidir"



■ səh. 4 ■

Mövqe və əqidəsini ən çox dəyişən deputat...



■ səh. 5 ■

Gültəkin Hacıbəylinin AXCP-dən əvvəl "ReAl"a üzv olmaq planı indi açılır...



■ səh. 14 ■

Deputat Azərbaycan universitetləri nəzdində fabrik-zavodların yaradılmasını təklif edir



■ səh. 11 ■

Təhsil Nazirliyinin yeni İctimai Şurasını digər nazirliklərin şurasından fərqləndirən əsas cəhət...





# Prezident İlham Əliyev Bakıda Azərbaycan-Yaponiya hərtərəfli əməkdaşlığının daha bir ifadəsi olan "Şimal-2" elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak etdi

**Prezident İlham Əliyev sentyabrın 5-də Bakıda "Şimal-2" elektrik stansiyasının istismara verilməsi mərasimində iştirak edib. Bu barədə Prezidentin Mətbuat xidmətindən "Trend"ə məlumat verilib.**

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev, Yaponiyanın xarici işlər nazirinin parlamentar müavini Kenji Yamada, Yaponiyanın ölkəmizdəki səfiri Teruyuki Katori dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verdilər.

Qeyd edək ki, 1950-ci illərdə iki mərhələdə istifadəyə verilən "Şimal" elektrik stansiyasının 1988-ci ildə birinci, 1998-ci ildə ikinci növbəsi tam köhnəldiyindən, istismardan çıxarılmışdı. 1998-ci ildə ulu öndər Heydər Əliyev Yaponiyaya səfəri zamanı 400 meqavatlıq "Şimal-1" elektrik stansiyasının tikintisi üçün ölkəmizə investisiya cəlb olunmasına nail olub. Beləliklə 2000-ci ildə əsası qoyulan 400 meqavatlıq "Şimal-1" stansiyası 2002-ci ildə istismara verilib. 2011-ci ildə isə Prezident İlham Əliyevin iştirakı ilə ərazisi 104,9 hektar, gücü 400 meqavatlıq "Şimal-2" elektrik stansiyasının təməli qoyulub. Ötən ilin payızından başlayaraq "Şimal-2" elektrik stansiyasının tikinti və quraşdırma prosesləri sürətləndirilərək 2019-cu ildə işlər tamamlanıb.

Dövləti başçısı stansiyanın kollektivi ilə xatirə şəkli çəkdirdi və bildirdi: "Stansiyanın açılışı çox əlamətdar hadisədir. Azərbaycanda elektrik enerjisinə olan tələbat artır və əlbəttə ki, istehsal gücləri bu tələbata uyğun olmalıdır. Ona görə bu stansiyanın çox böyük əhəmiyyəti var.

Yaponiya şirkətlərinə də təşəkkürümü bildirirəm, burada çox fəal işləyiblər, bu stansiyanı yüksək keyfiyyətlə qurublar. Stansiyanın qurulması Yaponiya-Azərbaycan əməkdaşlığının təzahürüdür və xarici işlər nazirinin müavini də xüsusilə bu məqsədlə Azərbaycana səfər edib. Əminəm ki, bizim ikitərəfli əlaqələrimiz gələcəkdə də uğurla inkişaf edəcək, çünki hələ bir çox layihələr icra olunmalıdır.

Bu stansiyanın fəaliyyətə başlaması elektrik enerjisi sahəsində çox əlamətdar hadisədir. Mən şadam ki, biz bu gün bu stansiyanın açılışını edirik. Azərbaycanda bundan sonra da sənaye istehsalının və iqtisadiyyatın artımı elektrik enerjisi mənbələri ilə təmin edilməlidir. Sizi bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram".



## Daha bir məşhur beynəlxalq media təşkilatının nümayəndələri Mətbuat Şurasında Əflatun Amaşovla görüşdülər...

**Sentyabrın 5-də COJEP beynəlxalq təşkilatının rəhbəri Əli Gedikoğlunun başçılıq etdiyi nümayəndə heyətinin üzvləri - təşkilatın Avropa Parlamenti ilə iş şöbəsinin müdiri İfakat Yuna, Avropa Birliyi ilə əlaqələr koordinatoru Sati Arık və BMT üzrə əlaqələr koordinatoru Dudu Keleş Azərbaycan Mətbuat Şurasında olublar.**

Qonaqları salamlayan MŞ sədri, Milli Məclisin deputatı Əflatun Amaşov rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətlərindən, beynəlxalq təşkilatlardakı təmsilçilik məsələlərindən söz açıb. O bildirib ki, Ümumdünya Mətbuat Şuraları Assosiasiyası, Avropa Mətbuat Şuraları Alyansı kimi birliklərin üzvü olan Azərbaycan Mətbuat Şurası Avropa Şurasının və Avropa Birliyinin, həmçinin, BMT-nin Azərbaycan nümayəndəlikləri ilə fəal əməkdaşlıq edir.

COJEP rəhbəri Ə.Gedikoğlu bildirib ki, 2007-ci ildən beynəlxalq qurumlarda təmsil olunan COJEP-in mərkəzi Strasburqda yerləşir. Bundan başqa, təşkilat Avropanın 14 ölkəsində fəaliyyət göstərir, irqçilik, ayrıseçkilik, islamafobiya, demokratikləşmə, bərabər hüquqlar istiqamətində çalışır. Təşkilatın məqsədi beynəlxalq təşkilatlarda ictimai birliklərin təsir gücünü artırmağa yönəlib.

Görüşdə COJEP nümayəndələrinin sentyabrın 1-dən 7-dək Cənubi Qafqaza səfəri gedişində müzakirə edilən məsələlər, qarşılıqlı əməkdaşlığın qurulması yolları ətrafında fikir mübadiləsi aparılıb.

## Aydın Quliyev: "Bəzi jurnalistlərin də KİVDF-ni qaralayan radikal mühacirlərin yolu ilə getməsi təəssüfləndiricidir"

**"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev "Facebook" səhifəsində son günlər KİVDF-yə qarşı başladılmış qərəzli kampaniya ilə bağlı status paylaşıb.**

A.Quliyev yazır: "Azərbaycan Prezidentinin mətbuat siyasətində ən uğurlu və daimi layihə olan KİVDF-yə qarşı daha bir qərəzli, olmayan şeyləri xüsusi niyyətlə şişirdən kampaniyanın şahidi oluruq. Vüqar Səfərli jurnalistlərə Prezidentin hədiyyəsi olan mənzillərə "kupça"ların qanuni prosedurlar çərçivəsində mütləq veriləcəyini dediyi halda, bəzi həmkarlarımız kontekstdən çıxarılmış bir sözdən yapışaraq top kimi ora-bura vurmaqla məşğul olur, bu zaman ümumi şəkildə necə ziyankar iş gördüyünün fərqinə varmır. Hiss olunur ki, bəzi həmkarlarımız, sadəcə, vicdanlı yanılma ilə "vay-vay, evimizi əlimizdən alacaqlar" kimi əsassız hay-küyə getdikləri halda, bəziləri hallandırdıqları məsələdə tam qərəzli



olduqlarını özləri də əla başa düşür, ancaq "hara deyməyi vacib deyil, təki top hərəkətdə olsun" prinsipi ilə hərəkət edir. Bu isə jurnalist obyektivliyi deyil, "dostlar"!

Maraqlıdır ki, KİVDF-yə qarşı biz indiyə qədərki kampaniyalarda adətən radikal müxalifətçiləri, "trolları", bəzi uğursuz baş redaktorları, xaricdə məskunlaşmış söyüş dəstəsinin üzvlərini görərdik. Bu gün isə hətta KİVDF-nin xətti ilə bu təşkilatın sayəsində mənzil almış bəzi jurnalist həmkarlarımızı da KİVDF-ni qaralayıb hörmətdən salmaq kampaniyasına qoşulan görürük. Heç yaxşı görüntü deyil...

Həmkarlarımıza qısa bir xatırlatma... Radikal müxaliflərin, söyüş mühacirlərinin apardıqları kampaniyanın hədəfi belə idi: "Dünyaya KİVDF-ni özünü guya doğrultmayan təşkilat kimi tanıtmaq, beləliklə, Prezidentin mətbuat siyasətinin ümumən tutarsız olduğu görüntüsünü yaratmaq". Aşkar görünür ki, əsas məqsəd KİVDF-ni üzə tutaraq Prezidentin mətbuat siyasətini və Administrasiyanın ictimai-siyasi şöbəsini hədəfə almaqdır. İndi bizim mənzil almış bəzi həmkarlarımızın da qoşulduğu kampaniya KİVDF-ni qaralamağa və hörmətdən salmağa xidmət edir. Hər iki halda arxa hədəf ölkə Prezidentinin mətbuat siyasəti deyilmi?!...

Ayıq olun həmkarlar, tora düşürsünüz..."Vüqar Səfərli jurnalistlərin mənzilinə "kupça" vermək istəmir" kimi absurd şeyləri yazmaq üçün obyektivliyi hansı həddə qədər itirmək lazımdır? Birinci binadakı jurnalistlər "kupça" alandan sonra mənzil haqqı ödəməkdən azad oldular" kimi yalan və məntiqsiz fikirləri yaymağın adı nədir? Azərbaycanın harasında yeni binalardakı mənzil sahibləri qanuni aylıq haqq ödəməkdən azad olunublar? Birinci binada kimlərsə özünü ərköyünlüyə qoyub mənzil haqqı ödəmirsə, buna görə Vüqar Səfərlini gərəyindən çox dözüm göstərdiyinə görə qınayanları haqlı saymaq olar. "Kupça"nın olub-olmaması heç bir halda jurnalisti mənzil haqqı ödəməkdən azad edə bilməz.

Daha bir xatırlatma... Radikallar, mühacirlər, bəzi uğursuz baş redaktorlar KİVDF-ni guya özünü doğrultmayan təşkilat kimi qaralama kampaniyası aparanda bugünkü kampaniyaya qoşulan bəzi "mübariz həmkarlarımızın" heç səsi çıxmadı... Onlar heç olmasa deyə, yaza bilərdilər ki, sizin ləğvinə çalışdığınız bu təşkilatın sayəsində biz ölkə Prezidentindən hədiyyə-mənzil aldıq. Düşündürücü deyilmi?!

**Sağ-salamatlıqla yaşayın... Ancaq qəflətə qapılanlara dostcasına xatırlatmaq istəyirəm ki, səmərəli ölkə idarəçiliyində jurnalistləri özünün ən yaxın müttəfiqi və dostu sayan Prezidentin jurnalistlərdən gözlədiyi yalnız ədalətli informasiya və təhlillərdir, onun yaratdığı təşkilatı qaralama kampaniyaları yox...".**



## Mənzillərin çıxarışları yaxın günlərdə binanın həyətində jurnalistlərə veriləcək

**Jurnalistlər üçün inşa edilmiş ikinci binada yerləşən mənzillərə dair çıxarışlar yaxın günlərdə media nümayəndələrinə təqdim ediləcək.**

Bu barədə "Trend"ə Əmlak Məsələləri Dövlət Komitəsindən məlumat verilib.

Məlumatda deyilir ki, ölkə rəhbəri möhtərəm cənab Prezident İlham Əliyevin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə jurnalistlər üçün inşa edilmiş və onların mülkiyyətinə verilmiş ikinci binada yerləşən mənzillərə dair çıxarışlar Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən yaxın günlərdə səyyar mobil qeydiyyat xidməti çərçivəsində həmin binanın həyətində media nümayəndələrinə təqdim ediləcək.

# Usubov-Patruşev müzakirələri - Rusiya-Azərbaycan informasiya təhlükəsizliyi əməkdaşlığının yeni dövrü...

**Məlum olduğu kimi, Bakıda Azərbaycanın Təhlükəsizlik Şurasının katibi Ramil Usubovla rusiyalı həmkarı Nikolay Patruşev arasında görüş keçirilib. Görüşdə iki ölkə arasında təhlükəsizlik məsələləri üzrə məsləhətləşmələr baş tutub.**

*"Belə xoşagəlməz halların qarşısını almaq baxımından bu sahədə əməkdaşlıq lazımdır"*

***Azər Həsrət:** "Azərbaycanın informasiya təhlükəsizliyi məsələlərində Rusiya ilə belə yaxın münasibətlər qurması və müzakirələr aparması faydalıdır"*



Görüşdə N.Patruşev R.Usubovu yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edib. O, Rusiya ilə Azərbaycan arasında təhlükəsizlik şuraları aparatları, güc strukturları və hüquq-mühafizə orqanları xəttilə sıx əlaqələrin davam edəcəyinə əminliyini vurğulayıb.

İki ölkənin bir sıra nazirliklərinin və dövlət strukturlarının nümayəndələrinin iştirakı ilə keçirilən ekspert məsləhətləşmələr zamanı terrorçuluqla və ekstremizmlə mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə, habelə informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlığa xüsusi diqqət ayrılıb. İnformasiya təhlükəsizliyi sahəsində əməkdaşlığın genişləndirilməsi Rusiya-Azərbaycan münasibətlərində ehtiyac hiss olunan məsələ kimi dəyərləndirilə bilər. Məsələ ondadır ki, Rusiya böyük ölkə olmaqla yanaşı, həm də qonşu dövlətdir. İki ölkə arasında bir sıra sahələrdə geniş əməkdaşlığın olduğunu nəzərə alsaq, informasiya təhlükəsizliyi sahəsində də əməkdaşlığın genişləndirilməsinə ehtiyac var. Bütün bunlarla yanaşı, informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıqda nələrə ehtiyac var və bu nə formada ola bilər?

Sözügedən məsələyə aydınlıq gətirən media eksperti Azər Həsrət bununla bağlı bir sıra məqamlara toxundu: "Bəlli olduğu kimi, Azərbaycan MDB-nin üzvüdür və həm də Rusiya ilə ikitərəfli strateji əməkdaşlığa sahibdir. Bundan başqa, biz keçmiş sovet ölkəsi olduğumuz üçün iki dövlət arasında virtual müstəvidə ciddi bağlantılar var. Belə bağlantıların olması bir tərəfdən yaxşıdırsa, digər tərəfdən də informasiya təhlükəsizliyi məsələlərində narahatlıqlar üçün də əsas verə biləcək amildir. Çünki Azərbaycanı daxildən qarışdırmaq istəyən, xüsusən də ölkənin, ümumiyyətlə, inkişafını həzm etməyən qüvvələr rahat durmur. Həmin qüvvələr mümkün qədər çalışırlar ki, informasiya təxribatları ilə ölkədə qarmaqarışıqlıq yaratsınlar, Azərbaycanı gözdən salsınlar, vətəndaşları dövlətə qarşı yönəltsinlər. Bu işlərin də bir hissəsi Rusiyadakı bəzi dairələr tərəfindən həyata keçirilir. Fikrimcə, belə xoşagəlməz halların qarşısını almaq baxımından bu sahədə əməkdaşlıq lazımdır. Hesab edirəm ki, Azərbaycanın informasiya təhlükəsizliyi məsələlərində Rusiya ilə belə yaxın münasibətlər qurması və müzakirələr aparması faydalıdır. O baxımdan bu bizim üçün əhəmiyyətlidir. Digər bir tərəfdən Rusiyanın özünün də informasiya təhlükəsizliyi sahəsində problemləri var. Əlbəttə ki, Azərbaycan onun cənub qonşusu, xüsusən də Cənubi Qafqazda ən güclü dövlət olaraq Rusiyaya ən böyük fayda verə bilər.

Yəni iki ölkə arasında informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində qarşılıqlı işbirliyi və təhlükələrin birgə dəf edilməsi baxımından bu müzakirələrin əhəmiyyəti çox böyükdür".

***Vidadi ORDAHALLI***

# Azərbaycan-Rusiya sərhədlərində birgə infrastruktur layihələr - münasibətlərin yeni səviyyəsini göstərən məqam...

**Məlum olduğu kimi, Bakıda Azərbaycanın Təhlükəsizlik Şurasının katibi Ramil Usubovla rusiyalı həmkarı Nikolay Patruşev arasında görüş keçirilib. Rusiyanın Təhlükəsizlik Şurasının mətbuat xidmətinin görüş barədə yaydığı məlumatda bildirilir ki, Rusiya ilə Azərbaycan arasında təhlükəsizlik şuraları aparatları, güc strukturları və hüquq-mühafizə orqanları xətti vasitəsilə sıx əlaqələrin davam edəcəyinə dair razılığa gəlinib.**




***Arzu Nağıyev:** "Üst-üstə düşən xətlərimiz məhz bu istiqamətdə olduğu üçün, birgə tədbirlərin həyata keçirilməsi daha məqsədəmüvafiqdir"*

R.Usubovla N.Patruşev arasında keçirilən danışıqlarda terrorçuluq və ekstremizmlə mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə, o cümlədən, informasiya təhlükəsizliyinin təmin olunması sahəsində əməkdaşlığa xüsusi diqqət ayrılıb. Tərəflərin sərhədlərdə birgə layihələrin reallaşması, hərbi-texniki sahədə əməkdaşlığı genişləndirmək haqda razılıq əldə etdiyi bildirilib.

Sərhədlərdə birgə layihələrin reallaşması, hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi sahəsində əldə onunan razılaşmalar iki ölkə arasında hansı irəliləyişə səbəb ola bilər?

Təhlükəsizlik məsələləri üzrə ekspert Arzu Nağıyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Bakıda keçirilən görüş böyük əhəmiyyətə malikdir: "Cənab Usubovla Nikolay Patruşev arasında keçirilən görüşün əsas məğzi hər iki ölkənin təhlükəsizliyinə olan təhdidlərin qarşısının alınmasından və bu istiqamətdə atıla biləcək birgə addımlardan ibarət olub. Tərəfləri əsas narahat edən məsələlər terrorizm, separatizm və digər istiqamətlərdəki problemlərdir. Sərhədlərlə bağlı olan həssaslıq da başadüşüləndir. Çünki bizim ümumi sərhədlərimizin olduğu ərazilərdə terrora nisbi meyllilik var. Söhbət Rusiyanın cənubu, Azərbaycanın isə şimalında terrora meylli ocaqların olmasından gedir. Zaman-zaman hər iki ölkənin əlaqədar qurumları belə yuvaları zərərsizləşdirib. Bu o demək deyil ki, həmin ərazilər nəzarətsiz buraxılmalıdır. Belə tədbirlərin hər iki ölkənin birgə səyi ilə keçirilməsi daha ciddi effektə malik ola bilər. Təhlükəsizlik katibləri arasında əldə olunan razılıqlar bir qoşun növünü əhatə etmir. Bütün silahlı qüvvələr və hüquq-mühafizə orqanlarının bu istiqamətdə işinin qarşılıqlı koordinasiyası ciddi nəticələrə gətirib çıxara bilər. Bundan başqa, bizim birgə sərhədlərimiz həm də Xəzər dənizindədir. Orada da qaçaqmalçılıq, narkoticarətə qarşı fəaliyyət göstərilə bilər. Üst-üstə düşən xətlərimiz məhz bu istiqamətdə olduğu üçün, birgə tədbirlərin həyata keçirilməsi daha məqsədəmüvafiqdir. Biz terror təhdidindən də əziyyət çəkirik. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu aydın sezilir. Belə təhdidlərlə effektli mübarizə üçün informasiya mübadiləsinin aparılması da zəruridir. Düşünürəm ki, keçirilən görüşdə hər iki ölkəni qane edəcək nəticələr əldə olunub".

***Məhəmmədəli QƏRİBLİ***

# Mövqe və əqidəsini ən çox dəyişən deputat...

**Azərbaycanın ictimai-siyasi həyatında elə şəxslər var ki, siyasi elastiklikləri ilə adamı təəccübləndirmirlər, sözün əsl mənasında, "heyran" edirlər. Tam məsuliyyəti ilə deyə bilərəm ki, belələrindən ən öndə gedəni millət vəkili Vahid Əhmədovdur. Niyəsini izah edirəm.**

Bir dəfə radikal müxalifətin təmsil olunduğu toplantıda jurnalist kimi iştirak edirdim. Zaman elə də uzaq keçmişi əhatə etmir. Birdən məclisə yaxasında deputat nişanı ilə Vahid Əhmədov daxil oldu. Hansısa jurnalistə rəsmi qəzetdə deyil, hakimiyyətə qarşı nisbətən loyal KİV-də çalışdığına görə salam verməyən radikalların Vahid Əhmədovun boynuna necə sarılıb, onunla öpüşdüklərini görmək məni çox təəccübləndirdi.

Vahid Əhmədovun hakimiyyətə, daha doğrusu, hakimiyyətlərə necə yol tapması başqa mövzunun söhbətidir. Mənə çox təəccüblü gələn radikal düşərgənin Vahid Əhmədovu tam özününkü kimi qəbul etməsi oldu. Deyə bilərlər ki, adam Elçibəy hakimiyyətində təmsil olunub, ona görə. Bu, beynimə batan arqument ola bilməz. Çünki hətta son vaxtlara kimi Əli Kərimli ilə çiyin-çiyinə addımlayan, sonra bir balaca iqtidara loyallıq göstərənlərə həmin düşərgə birmənalı olaraq satqın damğasını vurur. Elə həmin hadisədən sonra V.Əhmədovun karyerası, keçdiyi həyat yolu ilə azacıq maraqlanmağa başladım. Bax, həmin araşdırmadan sonra V.Əhmədovun niyə bütün düşərgələr tərəfindən qəbul olunduğuna cavab tapmış oldum. Elə düşünməyin ki, bu, V.Əhmədovun əvəzolunmaz iqtisadçı kadr olması ilə bağlı olan məsələdir. Dərindən maraqlansanız görərsiniz ki, adam heç iqtisadiyyatı da əməlibaşlı mənimsəyə bilməyib.

Bu müddətdə çox hadisələr baş verib, sular durulub, kimin kim olduğu üzə çıxıb, siyasətə yeni simalar gəlib, bəziləri isə, təbii ki, səhnədən gediblər. V.Əhmədovla bağlı məqamlar da yaddaşlardan silinməyib. Respublikamızda məlum siyasi hadisələr baş verib. V.Əhmədov isə, bir qayda olaraq, hər zaman hakimiyyətlərə yaxın mövqedə dayanıb. Adam bir şəxsin hamının "dostu" olmasına heyrət etməyə bilmir. Bir baxın, keçmiş sovet rejiminin məmuru ötən əsrin 90-cı illərinin əvvəllərində Xalq hərəkatının önündə gedən "azadlıq, müstəqillik" aşiqinə çevrildi, gah "mütəllibovçular komandasında" yer aldı, gah da "cəbhəçilər"in, "müsavatçılar"ın qanadının altına sığındı, onlardan vəzifə aldı. Son illər verdiyi açıqlamalardan da belə bəlli olur ki, onun siyasi əqidəsi yenə də möhkəmlənməyib, püxtələşməyib və hər zaman yeni bir dəstədə təmsil olunmağa hazırdır.

Zavod direktorluğundan o dövrün Nazirlər Sovetinə, yeni siyasi hakimiyyətinə yol tapmış V.Əhmədovun tərcümeyi-halına nəzər saldıqda onun bu gün sabit əqidədən danışmağa haqqının olmadığı qənaətinə gəlmək olar.

Bu şəxs özü də etiraf edir ki, ötən əsrin 90-cı illərinin əvvəlində kimin hakimiyyətə gəlmək ehtimalı olubsa, onunla arasını yaxşı edib. KİV-ə müsahibələrində, bir tərəfdən, Ayaz Mütəllibovla isti münasibətdə olduğunu deyən V.Əhmədov, digər tərəfdən, AXC rəhbərliyi ilə aranı "düzəltdiyini" söyləyib. O, açıqlamalarının birində qeyd edirdi ki, nəinki Baş nazirin müavini olduğu zamanlarda, hətta zavod direktoru kimi də AXC-Müsavat cütlüyünə yaxından kömək göstərirmiş. Hətta 1992-ci ilin may hadisələri zamanı Mütəllibov AXC ilə danışıq aparmaq üçün məhz V.Əhmədovu "göndəribmiş". İkincinin dediyinə inansaq, o, bu danışığa gecikib. Amma sonradan vəzifə nərdivanında yüksəlməsi onun bu görüşə təsadüfən və ya qəsdən gecikmə ehtimallarını gündəmə gətirir. Hər halda, bu gecikmənin ardından V.Əhmədov daha yüksək vəzifə ilə "ödülləndirilir".

Görünən budur ki, Elçibəy hakimiyyətindən sonra da V.Əhmədovun işləri pis getmir. İndiki hakimiyyətin dönəmində bir neçə dəfə millət vəkili olub, oğlunu bu yaxınlarda Bakının ən böyük rayonlarından birinə prokuror təyin etdilər. Bunları bəlkə də hamı yaxşı görür. Ancaq kimsə danışmaq istəmir. Səbəblər müxtəlif ola bilər: qorxu, aranı pis etməmək və s. Ancaq Vahid müəllimin özü yaxşı düşünməlidir ki, heç olmasa arada müxalif görünməyə çalışmaqla müəyyən mövzulardan xal əldə etməyə doğru yön götürməsin. Bilsin ki, kimsə ona bütün bunları xatırlada bilər.

Son vaxtlar bəzi KİV V.Əhmədovu media üzrə ekspert qismində təqdim etməyə başlayıb. Bu adam da sağına-soluna baxmadan ürəyindən nə keçirsə, onu danışır. Bəli, məhz ağlından keçənləri deyil, ürəyində olanları söyləyir. Bir gün deyir ki, filan qurum ləğv olunmalıdır, başqası gün jurnalistlərin əqidəsini ölçən cihaz rolunda çıxış edir. Çox təəccüblüdür, bizə lazım olanda bu adamdan öz ixtisasına uyğun iqtisadi sahə üzrə proqnoz ala bilmirik, amma adam medianın problemlərindən həvəslə ekspertlik edir. Ona hansısa mövzu barədə danışmağı qadağan edə bilmərik, amma gərək o da bir az insaflı olsun. Gəlin V.Əhmədovun jurnalistlərə xitabən işlətdiyi son fikrə diqqət edək: "Jurnalistin bir evə görə əqidəsi dəyişirsə, deməli, o jurnalist deyil". Yuxarıda əqidə dəyişməklə bağlı keyfiyyətlərini sadaladığımız V.Əhmədov bununla demək istəyir ki, Azərbaycanda Prezidentin KİV nümayəndələrinə hədiyyə etdiyi evləri almaq üçün guya əsas meyarlardan biri də əqidəni dəyişməklə bağlıdır. Bu lap radikal müxalifətçilik və xaricdə söyüş söyən dəstə ilə həmrəylik mövqeyi oldu ki... Ancaq ev almaq üçün lazım olan və rəsmən elan olunan kriteriyalarda belə müddəaya rast gəlinmir. Hətta bu günün özündə elə ev alan jurnalistlər var ki, hakimiyyəti ən sərt formada tənqid edirlər. Hər halda, V.Əhmədov bunu bilməmiş deyil. Onda niyə jurnalistlərə verilən evlərlə bağlı Əli Kərimli ilə tam uzlaşan mövqeni bölüşür?



***Məhəmmədəli QƏRİBLİ***

# Müxalifəti sosial islahatlar paketinə qarşı yönəldən əsas motiv - əhali yaşayışının yaxşılaşması radikallara sərf etmir...

**Azərbaycanda həyata keçirilən sosial siyasətin önündə daim vətəndaş amili dayanıb. İnsanların həyat və yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması üçün zaman-zaman sosial-iqtisadi islahatlar həyata keçirilir. Ölkə başçısının həyata keçirdiyi uğurlu daxili siyasətin nəticəsidir ki, bu gün Azərbaycanın yeni sosial və iqtisadi inkişaf modeli bir sıra ölkələr üçün nümunə göstərilir.**



***Məhərrəm Zülfüqarlı:** "Müxalifət əhalinin sosial vəziyyətinin yaxşılaşmasından ona görə narahatdır ki, bu onların sonunu yaxınlaşdırır"*

Son zamanlar sosial sahədə dərinləşən islahatlar, bir-birinin ardınca qəbul olunan sosial paketlər ümumən əhalinin, xüsusən də ən həssas və aztəminatlı təbəqənin sosial vəziyyətini yaxşılaşdırmağa xidmət edir.

Lakin görünən odur ki, həyata keçirilən islahatlar, bu çərçivədə qəbul edilən sosial paket müxalifəti narahat edir. Onlar nəinki hər şeyə qara eynəklə baxırlar, hətta sosial şəbəkələr vasitəsilə gecə-gündüz antitəbliğatlar da aparırlar ki, guya ölkədə hər şey pisə doğru gedir, görülən işlər, aparılan islahatlar, insanların maddi durumunun yaxşılaşdırılması istiqamətində dövlətin yürütdüyü siyasət təqdir edilməməlidir və s. Sosial şəbəkələrdə bütün vasitələrdən istifadə edirlər ki, qəbul edilən sosial paketi gözdən salsınlar. Xüsusən də müxalifətin radikal qolu bu işdə daha çox aktivlik göstərir. Cəmiyyətin fikir və düşüncələrini reallıqdan yayındıraraq başqa istiqamətə yönəltməyə çalışırlar. Müxalifətin radikal qanadının sosial paketdən narahat olması təsadüfi deyil. Çünki əhalinin sosial vəziyyəti yaxşılaşdıqca, onların tərəfdarlarının sayı azalmağa doğru gedir. Zatən, bu qüvvələrin cəmiyyətdə elə bir ciddi sosial dayaqları yoxdur. Müəyyən tərəfdarları var ki, onların da sayı elə çox deyil. Bu tərəfdən də qəbul edilən sosial paket onların onsuz da az olan tərəfdarlarının sayını bir qədər də azaldır. Ona görə də müxalifət əhalinin sosial vəziyyətinin yaxşılaşmasından narahatdır. Onlar istəyirlər ki, əhalinin sosial vəziyyəti pisləşsin və bu minvalla tərəfdarlarının sayı artsın. Ölkədə gərginlik yaransın və bundan öz məqsədləri üçün istifadə etsinlər.

*"Onların arzusu odur ki, əhalinin sosial vəziyyəti pisləşsin və bu, ölkədə sosial narazılıqlara gətirib çıxarsın"*

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, müxalifət əhalinin sosial vəziyyətinin yaxşılaşmasından ona görə narahatdır ki, onların sonunu yaxınlaşdırır: "O üzdən, bu qüvvələr fikirləşir ki, vəziyyət nə qədər pisləşsə, bu onlar üçün o qədər yaxşıdır. Xüsusən də məlum radikal müxalifət. Ona görə də onlar hər vəchlə sosial şəbəkələrdə sosial paketə yönəlik təbliğat aparırlar. Onun səmərəsini gözdən salmağa çalışırlar. Böhtan atırlar ki, görülən işləri qaralasınlar. Bir sözlə, radikal müxalifət əhalinin sosial vəziyyətinin yaxşılaşmasından bərk narahatdır və bunu danmaq olmaz. Hesab edirlər ki, işlərin bu templə getməsi onların siyasi arenadan tamamilə silinib getməsinə gətirib çıxaracaq. Müxalifətin arzusu odur ki, əhalinin sosial vəziyyəti pisləşsin və bu, ölkədə sosial narazılıqlara gətirib çıxarsın. Onlarda azacıq da olsa obyektivlik olsaydı, o zaman bunu müsbət dəyərləndirərdilər. Ancaq, göründüyü kimi, buna cəsarətləri çatmır. Çünki bu qüvvələr uzun illərdir qaraya ağ, ağa qara deməklə məşğuldurlar".

*Vidadi ORDAHALLI*

# Gültəkin Hacıbəylinin AXCP-dən əvvəl "ReAl"a üzv olmaq planı indi açılır...

**Milli Şura və "ReAl" partiyası arasında gərginlik səngimək bilmir. Tərəflər sosial şəbəkələrdə bir-birini sərt şəkildə ittiham edir. "ReAl"ın icraçı katibi Natiq Cəfərli yazdığı "Facebook" statusunda "Milli Şura" və bu qurumda təmsil olunan Azərbaycan Xalq Cəbhəsi Partiyasının ona və "ReAl"a qarşı qarayaxma kampaniyası apardığını bəyan edib.**



***Natiq Cəfərli:** "Fikirləşdik ki, Gültəkin üçüncü dəfə deputat olmadığına görə qəzəblidir və onun müxalif düşüncəsi ideoloji yox, qəzəbdən doğub"*

***Nurəddin Məmmədli:** "Ümumiyyətlə, bu məsələ barəsində danışmaq istəmirəm"*

Cəfərli qeyd edib ki, kampaniya "Milli Şura" rəhbərliyinə daxil olan şəxslər tərəfindən xüsusi olaraq qızışdırılır: "Fikri olub, beyni olmayan bir qrup adam (sayları 100-ü keçmir, sadəcə, hər birinin də 4-5 saxta profili var) küy yaradaraq fikir formalaşdırmağa çalışırlar. Və bu kampaniya birbaşa MŞ rəhbərliyinə daxil olan adamlar tərəfindən qızışdırılır, idarə olunur və yönləndirilir. Həmin siyasi düşüncə tərzinin 25 ildir daşıyıcısı olanlar zaman-zaman eyni kampaniyanı ya öz təşkilatlarının içində olanlara, ya da digər siyasi partiyalara qarşı aparıblar. Öz partiyalarından hökumət tərəfə keçib deputat, məmur olan onlarla adam var deyə kompleksə düşüblər, fərqli düşünən görəndə sanki havalanırlar, ağılları-bilikləri yoxdur, ancaq satqın söhbəti salırlar. Müsavat Partiyası 2013-cü ildə MŞ-dan çıxanda eyni kampaniyanı onlara qarşı da apardılar".

Daha sonra N.Cəfərli "Milli Şura"ya üzv olan şəxsləri beyinsiz adlandırıb: "25 ildir xalqı dolayanların, aldadanların ritorikası ilə danışım - Gəlirik, Tikdəyik, Az qaldı, Hakimiyyət çökür, Hamısı qaçmağa hazırlaşır - beləmi danışım?! Mən belə məsuliyyətsiz və populist ola bilmirəm. Siyasət budursa, tüpürüm belə yalan və pafos üzərində qurulmuş siyasətə".

N.Cəfərli, həmçinin, bu çirkin kampaniyada xüsusi fəallıq nümayiş etdirən Gültəkin Hacıbəylini canlı debata çağırıb: "Kimin hansı mövqedə olduğunu, kimin tez-tez mövqe dəyişdiyini xalq görür və buna xalq qərar verəcək, Gültəkin xanım yox. Ona son şans vermək istəyirəm - özü seçdiyi istənilən jurnalistlə birgə canlı yayımda debat edək, bütün daşları ətəyindən töksün, jurnalist istənilən sualı versin, mən isə ondan bir zaman nədən "ReAl"a gəlmək istədiyini, nə cavab aldığımı soruşacağam. Cavab gözləyirəm".

Bütün bunlarla əlaqədar tərəflərin mövqeyini öyrənməyə çalışdıq.

Sözügedən məsələ ilə bağlı "Bakı-Xəbər"ə açıqlama verən "ReAl"ın icraçı katibi Natiq Cəfərlinin sözlərinə görə, "ReAl"ın və onun sədri İlqar Məmmədovun nüfuzu "Milli Şura"da bəzi insanlar üçün problemə çevrilir: "Ona görə də AXCP başda olmaqla, oradakı müəyyən qüvvələr çalışırlar buna xələl gətirsinlər. İstəmirlər ki, müxalif düşərgədə fərqli düşüncəyə malik insanlar olsun. İstəyirlər ki, hamını bir-bir sıradan çıxarıb meydanda tək olsunlar. Neçə vaxtdır bu yolla gedirlər. Bunlar öyrəşmişdilər ki, hücum edəcəklər, amma cavab almayacaqlar. Ancaq biz ilk dəfə onların qarşısına çıxıb buna dur dedik. Nəticədə onların arqumentləri bir-bir sıradan çıxmağa başladı. Başladılar təhqirə keçməyə. Ancaq bu onların ziyanına işlədi".

N.Cəfərli Gültəkin Hacıbəylinin bir zamanlar "ReAl"a gəlmək istəməsi məsələsinə də aydınlıq gətirdi: "2010-cu ilin parlament seçkilərindən sonra Gültəkin xanımın "ReAl"ın idarə heyəti ilə görüşü oldu. Xeyli söhbət etdik və qərara gəldik ki, ikinci görüş də olsun. Sonra öz aramızda müzakirələr apardıq və ikinci görüşə ehtiyac olmadığını səsvermə yolu ilə qəbul edildi. Fikirləşdik ki, Gültəkin üçüncü dəfə deputat olmadığına görə qəzəblidir və onun müxalif düşüncəsi ideoloji yox, qəzəbdən doğub. O üzdən, ikinci görüşü məsləhət bilmədik ki, bu barədə onunla ətraflı danışaq".

Məsələ ilə bağlı AXCP-nin sədr müavini Nurəddin Məmmədli ilə əlaqə saxladıq. Maraqlıdır ki, o bu məsələyə münasibət bildirib səslənən ittihamlara cavab vermək əvəzinə, tam fərqli yanaşma sərgilədi: "Niyə məhz müxalifətdaxili məsələlər olanda mənə sual verirsiniz? İqtidarla bağlı məsələlərdə nədənsə sual vermirsiniz, ancaq bu məsələdə sual verirsiniz. Ümumiyyətlə, bu məsələ barəsində danışmaq istəmirəm".

N.Məmmədliyə məsələyə bu cür yanaşması barədə bir sıra suallar vermək istəsək də, o, telefonu söndürdü.

**Əvvəla jurnalistin borcu deyil müxalifət funksionerinə ancaq iqtidarla bağlı sual versin. İstənilən mövzuda sual vermək jurnalistin öz azad hüququdur. Partiya funksionerinin də borcudur ki, ona ünvanlanan suallara cavab versin. Digər tərəfdən, demokratiyadan danışan partiya funksionerinin belə yanaşma sərgiləməsinin özü elə ən böyük antidemokratik olmağın əyani göstəricisidir.**

*Vidadi ORDAHALLI*

# Rusiya XİN Paşinyanı "Qarabağ Ermənistandır" şüarına görə vurdu...

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova keçirdiyi brifinqdə Ermənistanın Baş naziri Nikol Paşinyanın Xankəndidə səsləndirdiyi "Qarabağ Ermənistandır, nöqtə" ifadəsinə şərh verib. Mariya Zaxarova brifinqdə iştirak edən azərbaycanlı jurnalistlərdən birinin sualı əsasında bu haqda danışıb:**

***Yeganə Hacıyeva:** "Təəssüflər olsun ki, Paşinyan və Ermənistan rəhbərliyi bu cür obyektiv tənqidlərdən nəticə çıxarmaq əvəzinə, daha da azğınlaşır"*

"Biz bundan çıxış edirik ki, şübhəsiz, daxili ritorika var və elə daxili quruluş var ki, siyasi partiyaların, hərəkatların mövqeyini əks etdirir. Nəzərə alaraq ki, biz demokratik dövlətdən danışırıq. Və həmin sülh prosesi var və onun iştirakçıları var, məsələnin dinc yolla nizamlanmasına dair beynəlxalq səylər var. Və şübhəsiz ki, biz tərəflərin bəyanatlarının dinc nizamlanmaya yönəlmiş bu ümumi səylər kontekstinə uyğun gəlməli olduğundan çıxış edirik". Rusiya XİN nümayəndəsi əlavə edib ki, "nifaq alması" rolunu oynayan və oynaya biləcək hər bəyanatdan sonra danışıqlar prosesində əvvəlki mövqeyə qayıtmaq həmişə çox mürəkkəb olur: "Belə bəyanatlar əlavə suallar doğurur, yaxud kövrək danışıqlar prosesinin balansını pozur. Biz təəsüf ki, belə bəyanatları müxtəlif tərəflərdən, müxtəlif səviyyələrdə eşitmişik və eşitməkdə davam edirik. Çox istərdik ki, daxili siyasi proseslərə nə qədər hörmət etsək də, demokratik modellərdə insanların istənilən mövzuda danışmaq, siyasi gündəm formalaşdırmaq hüququnun olduğunu anlayışla qarşılamaqla bərabər, bütün tərəflər başlıca məqsəddən çıxış etsinlər - tezliklə dinc nizamlanmaya nail olmaq və bütün resursları bura yönəltmək".

Göründüyü kimi, Rusiya rəsmisi Paşinyanın səsləndirdiyi məsuliyyətsiz bəyanatı tənqid edib. Zaxarovanın bu yöndə olan açıqlamasını qənaətbəxş hesab etmək olarmı?

Politoloq Yeganə Hacıyeva qəzetimizə bildirdi ki, Zaxarovanın açıqlamasını normal qəbul edə bilərik: "Düzdür, həmsədr ölkə kimi, Rusiyanın mövqeyində bir qədər gecikmə hiss edilir. Buna irad tutula bilər. Çünki Paşinyan birbaşa danışıqlar prosesini pozan, sülhə xələl gətirən həmin açıqlamanı xeyli müddət əvvəl verib. Belə mövqe ilk növbədə həmsədrləri narahat etməli idi. Çünki Paşinyanın həmin bəyanatı ilk növbədə onların missiyasının fəaliyyətini kölgə altında qoyurdu. Ancaq biz hər hansı həmsədr ölkədən və xüsusilə də Rusiyadan həmin bəyantla bağlı impulsiv reaksiyanın verildiyinin şahidi olmadıq. Gecikmiş olsa da, Zaxarovanın mövqeyi bizi qane edir. Düzdür, bir qədər diplomatik tərzdə ifadə olunub. Belə də olmalıdır, çünki Zaxarova sıradan adam deyil, böyük bir ölkənin rəsmisidir. Nə qədər diplomatik tərzdə ifadə olunsa da, "tərcüməsi" hamıya aydındır. Zaxarava doğru olaraq vurğulayıb ki, rəsmilərin verdiyi bəyanatlarla münaqişə tərəflərinin daxilindəki siyasi qüvvələrin səsləndirdikləri bəyanatlar arasında ciddi fərq olmalıdır. Doğru olaraq qeyd edib ki, belə bəyanatlar danışıqlar prosesindəki balansı pozur. Təəssüflər olsun ki, Paşinyan və Ermənistan rəhbərliyi bu cür obyektiv tənqidlərdən nəticə çıxarmaq əvəzinə, daha da azğınlaşır. Paşinyanın Xankəndidə səsləndirdiyi məlum bəyanatın ölkə rəhbərinə yaraşmadığı qənaətinə onların özləri də gəlib. Təsadüfi deyil ki, Ermənistan XİN dərhal həmin bəyanatı malalamağa çalışdı. Ancaq xeyri olmadı. Bir daha sübut olunur ki, Paşinyan diletant siyasətçidir və Dağlıq Qarabağla bağlı sülh danışıqlarında heç bir ümidi doğruldan deyil. Hər halda, Rusiya tərəfi, sadəcə, Paşinyanın səhvlərini bəyanatlarla düzəltməklə deyil, ona daha ciddi təsir rıçaqlarını tətbiq etmək haqda düşünməlidir".




***Məhəmmədəli QƏRİBLİ***

# Köçəryanın taleyi Ermənistan Konstitusiyasının 35 və 135-ci maddələri arasında - Putin isə Paşinyanı sıxmaqda...

**Çərşənbə günü Ermənistanın Konstitusiya Məhkəməsi Cinayət Məcəlləsinin ölkənin sabiq prezidenti Robert Köçəryanın konstitusiya quruluşunu devirməkdə günahlandırılaraq həbs olunduğu 35-ci maddəsini Konstitusiyaya zidd elan edib.**

***Hatəm Cabbarlı:** "Konstitusiya Məhkəməsinin nə qərar verməsindən asılı olmayaraq, Köçəryan hələ həbsdə qalmalı olacaq"*

Qərarı Konstitusiya Məhkəməsinin rəhbəri Hrayr Tovmasyan oxuyub: "Müzakirələrdən sonra ölkənin Konstitusiya Məhkəməsi Cinayət Məcəlləsinin 35-ci maddəsinin konstitusiyaya zidd olması barədə qərar qəbul etdi. Bu qərar qətidir və ondan şikayət verilə bilməz".

Köçəryanın vəkili Aram Vardevanyan da qeyd edib ki, 35-ci maddə konstitusiyaya zidd hesab olunub. Bu o deməkdir ki, Robert Köçəryanın konstitusiya ilə təmin edilmiş şəxsi azadlıq hüququ pozulub. Vəkil, həmçinin, bildirib ki, 35-ci maddənin ləğvi Köçəryanın əsas ittiham olunduğu 135-ci maddəni də qüvvədə saxlaya bilməz. Çünki 35-siz 135-in mövcudluğu mümkün deyil.

Yeri gəlmişkən, bundan əvvəl Köçəryanın digər vəkili Hayk Alumyan jurnalistlərə demişdi ki, Konstitusiya Məhkəməsi müdafiənin bütün dəlillərini qəbul edərsə, müvəkkili dərhal azadlığa buraxılmalı və cinayət təqibi dayandırılmalıdır. Ermənistan KİV-i qeyd edir ki, yaranmış vəziyyət Köçəryanın tezliklə azad olunacağını şərtləndirir. Köçəryanın ətrafında proseslər hansı axarla davam edəcək?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın sabiq prezidenti Robert Köçəryan həbs edildəndən sonra Paşinyana müxalif olan KİV-in, demək olar, hamısı sabiq ölkə başçısının həbsinin qanunsuz olduğunu yazırdı: "Maraqlıdır ki, Ermənistanın Konstitusiya Məhkəməsi də öz qərarını elan etdi. Yəni hüququn möhürü ilə təsdiqlədi ki, Köçəryanın həbsdə saxlanması qanunsuzdur. Mən hesab emirəm ki, həmin qərarda Köçəryanın tez bir zamanda azad olunacağı üçün əl yeri qoyulub. Sadəcə, Cinayət Prossesual Məcəlləsinin iki maddəsinin konstitusiya ilə uzlaşmadığını qərara salıblar. Ermənistandakı müxalif KİV bunu əsas götürüb Köçəryanın işinə xitab veriləcəyini yazırlar, Paşinyana yaxın olan media isə belə ehtimalları təkzib edir. Ölkənin baş prokurorunun müavini verilən qərarın yekun akt olmadığını bəyan edir. Ümumən bu qərar Ermənistanın daxilindəki proseslərə ciddi təsir edib. Paşinyan əleyhdarları çox fəallaşıblar. Ancaq Paşinyan hakimiyyətinin davranışları heç də Köçəryanın tez bir zamanda azad ediləcəyini söyləməyə əsas vermir. Bu bir daha göstərir ki, Nikol Paşinyan hələ də hakimiyyətin bütün qollarına tam nəzarət edə bilmir. Paşinyan anlayır ki, belə vəziyyətdə Köçəryan sərbəst qalarsa, onun hakimiyyəti üçün ciddi təhlükə yarana bilər. Bu baxımdan da Konstitusiya Məhkəməsinin nə qərar verməsindən asılı olmayaraq, Köçəryan hələ həbsdə qalmalı olacaq".





***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycana "manat seli" gəlir

## Maaş və müavinətlərin artımı real sektorun inkişafını necə sürətləndirəcək?

**Ölkə iqtisadiyyatında bu gün ən çox diqqət mərkəzində olan məsələlərdən biri də dövriyyədəki pul bazası ilə bağlıdır. Məsələni hazırda aktuallaşdıran məqamlardan biri də cari ildən etibarən məvacib və digər müavinətlərin artımı fonunda bunun pul bazasına və qiymətlərə təsiridir.**



Aydındır ki, maaş və müavinətlərin artımı fonunda pul bazasını həcmində mütləq şəkildə artım olacaq. Ekspertlərin fikrincə isə pul bazası artımının iqtisadiyyata müsbət təsirləri olacaq və əslində, Azərbaycanda bu bazanın artımı artıq zərurətdir. Düzdür, pul bazasının məhdudlaşdırılması manatın məzənnəsini və eləcə də inflyasiya səviyyəsini tənzimləməyə imkan versə də, real sektorda xərcləmələri məhdudlaşdırır. Bu isə iqtisadi inkişafa əngəl yaradır. Xərcləmələrin genişlənməsi real sektorun inkişafı baxımından vacibdir. Pul bazasının kiçilməsi manat qıtlığı yaradır ki, bu da birbaşa istehlakçıları xərcləməyə deyil, imkan daxilində yığıma təşviq edir. Banklarda nağdlaşdırma ilə bağlı limitləri və qadağaları da bura əlavə etsək, o zaman manat bazasının azalmasına bunun nə dərəcədə ciddi təsir etdyini təsvir etmək çətin olmaz. Araşdırmalar göstərir ki, sərt pul-kredit siyasəti manat bazasının genişləndirilməsinə imkan vermir ki, bu da real sektorun əsas çətinliklərindən birinə çevrilir. Manat qıtlığı nəinki uzun, hətta orta müddətli dövr üçün iqtisadi baxımdan arzuolunan deyil. Real sektorun və eləcə də qeyri-neft sektorunun inkişafı birbaşa pul bazasının optimallaşdırılması səviyyəsi ilə bağlı olduğundan, manat bazasının genişləndirilməsinə ehtiyac var. Ölkədə maaş və müavinət artımı isə buna təkan verəcək mühüm faktorlardan sayılır.

Məlumat üçün onu da bildirək ki, Azərbaycanda pul bazası sentyabrın 1-nə 10 milyard 157,6 milyon manat təşkil edib. Bu rəqəm ötən illə müqayisədə 611,9 milyon manat çoxdur. 2018-ci ilin sonuna pul bazası 9 milyard 545,7 milyon manat olub. İlin sonuna kimi bazanın daha da artması gözlənir.

Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Elşad Məmmədov da bildirir ki, indiki halda, Azərbaycanda pul kütləsi kritik dərəcədə azdır: "Dinamik inkişaf edən milli iqtisadiyyatlarla müqayisədə Azərbaycan iqtisadiyyatında pul kütləsi az olub. Pul kütləsinin də böyük hissəsi məhz nağd pul bazasına aiddir. Bu, iqtisadi inkişafa mane olur, çünki milli iqtisadiyyatın dayanıqlı inkişafı üçün daim investisiya, daim pul kütləsi olmalıdır. Amma burada bir məqam ondan ibarətdir ki, artıq qeyri-nağd pul kütləsi var. Amma biz hələ də qeyri-nağd hesablaşmaların daha yüksək xüsusi çəkiyə malik olmasına nail ola bilmirik. Qeyri-nağd pul kütləsi çox olanda iqtisadi proseslərin şəffaflığına, dinamizminə müsbət təsir göstərir".

O bildirib ki, son aylarda pul bazasının artması müəyyən iqtisadi canlanma, sosial paket ilə izah oluna bilər: "Bu artımın bir tərəfdən məhz nağd pula aid olması mənfi məqamdır. Çünki qeyri-nağd pul kütləsinin artması daha məqsədəuyğun olardı. Amma, bütövlükdə, pul bazasının artımının müsbət tərəfləri ondan ibarətdir ki, bu, alıcılıq qabiliyyətinin artmasına və iqtisadi proseslərin stimullaşdırılmasına xidmət edir. Ona görə də burada əsas məsələ pul kütləsinin artımına nail olmaqdır. Artan pul kütləsinin daxilində də qeyri-nağd pul vəsaitlərinin xüsusi çəkisi daha üstün olmalıdır və təəssüf ki, hələlik buna nail olmamışıq".

Ekspertin sözlərinə görə, Mərkəzi Bank pul-kredit siyasətini yumşaldaraq investisiyaların artımına nail olacaq: "Çünki bu ilin dinamikasında investisiyaların azaldığını görürük və bu, qəti şəkildə yolverilməzdir, investisiyalar artmalıdır. İnvestisiyaların artımı üçün də pul kütləsi artmalıdır". Professor "Sputnik" portalına bildirib ki, pul bazasının tərkibinə dövriyyədə olan nağd pul və kommersiya banklarının Mərkəzi Bankdakı müxbir hesablarının qalıqları daxildir: "İqtisadiyyatın inkişafına əsasən nağd olmayan vəsaitlər xidmət etməlidir. Bu isə təxminən 4-5 milyard manatdır. Pul kütləsinin üçdə ikisi məhz nağd puldur. Amma, ümumilikdə, nağd və qeyri-nağd vəsaitlər çox azdır. Bizim ÜDM 80 milyard manatdırsa, pul kütləsi isə 15 milyard manatdırsa, bu, ÜDM-in 20 faizi də etmir. Amma aparıcı iqtisadiyyatlarda bu göstərici ən azı 70-80 faiz olmalıdır. Bu, sistemli məsələdir və pul bazasının azalması düzgün deyil. Pul bazası azalanda Azərbaycanda bütün pul kütləsi azalır və bu da problemdir. Pul kütləsini artırmadan investisiyaları necə artıracağıq? İnvestisiya olmayan yerdə iqtisadi inkişaf necə ola bilər? Burada koordinasiya olmalıdır. İnvestisiyaların artımına da bilavasitə bank sektoru cavabdeh olmalıdır. Bank sektoru bunun üçün kreditləri artırmalıdır. Çünki investisiyanın artımı kreditlə bağlıdır. Kredit artmırsa, investisiya da artmır".

Hələlik isə, yuxarıda qeyd olunduğu kimi, maaş və müavinətlərin artımı fonunda dövriyyəyə əlavə vəsait daxil olması pul bazasının da həcmini artıracaq. Xatırladaq ki, təkcə minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək insanı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu il sentyabr-dekabr ayları üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Minimum əməkhaqqı və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı ümumən 1 milyon 350 min insanı əhatə edəcək.

Bütün bunlar isə, yuxarıda qeyd olunduğu kimi, pul bazasının həcmini əhəmiyyətli dərəcədə yüksəldir. Digər tərəfdən xatırladaq ki, dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən ilk sosial paket 3 milyon insanı əhatə etməklə onların illik maliyyə tələbinin qarşılanmasına 1,6 milyard manata bərabər vəsait sərf olunmasına gətirib çıxarıb. İkinci paket isə, yuxarıda qeyd olunduğu kimi, bu aydan icraya yönəldilir. Ümumilikdə isə iki sosial paketin maliyyə tutumu təkcə bu il üçün 2,3 milyard manatdır. Davam etdiriləcək sosial tədbirlərə növbəti ildə 3 milyard manat xərclənəcək. Bunlar həm də pul bazasını artırmaqla real sektorun inkişafına da təkan olacaq.

***Tahir TAĞIYEV***

# Moskva-İrəvan münasibətlərində böyük çat - vəziyyət Rusiya televiziyalarının dayandırılması tələbinə çatdı...

**Rusiya-Ermənistan münasibətlərində son dövrlərdə yaranan problemlərin miqyasının daha da genişlənməsi müşahidə olunur. Ermənistanda hesab edilir ki, bu gedişlə qarşıdakı dövr ərzində Rusiyadan İrəvana yönəlik təzyiqlərin miqyasının artması qaçılmaz olacaq.**




Məsələyə münasibət bildirən erməni ekspert Anna Karapetyan vurğulayır ki, bu gün erməni-rus əlaqələrində böhran dərinləşir və Ermənistan hakimiyyəti artıq bu barədə açıq danışır".

Karapetyan qeyd edib ki, Paşinyan "Nouvelle d'Arm?nie" jurnalına verdiyi müsahibəsində gərginlik haqqında açıq danışıb: "Paşinyan Ermənistan-Rusiya əlaqələri ilə bağlı növbəti dəfə suverenlik problemini vurğulamaqla öz şübhəsini bildirdi. Suverenlik vurğusu, xüsusilə erməni-rus əlaqələrinin kontekstində, Ermənistanın hazırkı hakimiyyəti yanında mürəkkəb vəziyyətə çevrilir. Özünütəsdiqetmə maniyası ölkə üçün lazımsız problemlər yarada bilər". Erməni ekspert hesab edir ki, Rusiyanın əks tədbirləri çox sərt ola bilər: "Ermənistan hakimiyyəti indi suverenlik üçün mübarizə aparır, lakin onların fəaliyyətlərinə görə Rusiya suverenliyimizə real zərbə olacaq addımlar ata bilər. Nəticədə əlaqələrdə böhran dərinləşəcək və daha pis vəziyyətə düşəcəyik. Bu, çox incə oyundur, onu çox hazırlıqlı oynamalısan".

Karapetyanın sözlərinə görə, Vladimir Putinin Avrasiya İqtisadi İttifaqının tədbiri çərçivəsində Ermənistana gözlənilən səfəri çox şeyi aydınlaşdıracaq. Amma Ermənistanın Avropa Partiyasının sədri Tiqran Xzmulyan bildirib ki, bu səfər erməni tərəfi üçün heç də xoş olmaya bilər. Ən azından, o baxımdan ki, Putin artıq Ermənistan qarşısında şərt qoyaraq, onun gəlişinə qədər sabiq prezident Robert Köçəryanın azadlığa buraxılmasını tələb edir. Köçəryanın buraxılması isə Nikol Paşinyanın, digərləri kimi, Rusiyanın vassalı olması anlamına gəlir: "İndiki vəziyyətdə Rusiyanın "Ren TV", "Rossiya 24" kanallarının Köçəryan barədə yayımlarını hibrid müharibənin tərkib hissəsi kimi nəzərdən keçirmək lazımdır. Biz buna ciddi yanaşmırıq". Onun sözlərinə görə, Rusiya Ermənistana qarşı hibrid müharibəsi elan edib: "Müharibə informasiya müharibəsi ilə başlayır. Köçəryan isə bu hadisədə təsir agentidir. Onun suyunu rusmeylli qüvvələr toplamalıdır. Putin üçün ən anlaşılan təsvir o olduğuna görə məhz Köçəryan bu rola seçilib. Başqa sözlə desək, rus tərəfi üçün müqəvva lazımdır, bu halda isə Köçəryan müqəvva rolunu oynayır". Onun fikrincə, Ermənistanda Rusiya dövlət kanallarının yayımının kəskin şəkildə məhdudlaşdırılmasına və qadağan olunmasına zərurət var: "Ermənistanda Rusiya kanallarının yayımını yalnız Rusiyanın Ermənistana qarşı hibrid müharibə elan etdiyi səbəbindən qadağan etmək lazımdır".

İrəvan Mətbuat Klubunun sədri Boris Navasardyan da rus kanallarının Köçəryansayağı verilişlər yayımlaması məsələsinə toxunarkən qeyd edib ki, Ermənistan hakimiyyətinin bir çox sahələrdə güzəştə getməsinə nail olmaq üçün Rusiya bu yolla psixoloji təsir etmək istəyir: "Köçəryanın işi ilə bağlı həm Ermənistanda, həm də Rusiyada məhkəmə və istintaq orqanlarına daha çox təsir etmək niyyətində olan şəxslər var".

Bu arada xatırladaq ki, artıq Köçəryana görə Ermənistan hakimiyyəti daxilində ciddi ziddiyyətlər yaşanır. Belə ki, Ermənistanın Konstitusiya Məhkəməsi Cinayət Məcəlləsinin Robert Köçəryanın konstitusiya quruluşunu devirməkdə günahlandırılaraq həbs olunduğu 35-ci maddəsini konstitusiyaya zidd elan edib. Konstitusiya Məhkəməsinin rəhbəri Hrayr Tovmasyan bildirib: "Müzakirələrdən sonra ölkənin Konstitusiya Məhkəməsi Cinayət Məcəlləsinin 35-ci maddəsinin konstitusiyaya zidd olması barədə qərar qəbul etdi. Bu qərar qətidir və ondan şikayət verilə bilməz".

Köçəryanın vəkili Aram Vardevanyan da qeyd edib ki, 35-ci maddə konstitusiyaya zidd hesab olunub. Bu o deməkdir ki, R.Köçəryanın Konstitusiya ilə təmin edilmiş şəxsi azadlıq hüququ pozulub. Yeri gəlmişkən, bundan əvvəl Köçəryanın digər vəkili Hayk Alumyan jurnalistlərə demişdi ki, Konstitusiya Məhkəməsi müdafiənin bütün dəlillərini qəbul edərsə, müvəkkili dərhal azadlığa buraxılmalı və cinayət təqibi dayandırılmalıdır. Hesab edilir ki, hadisələrin bu səpkidə inkişafına Rusiyanın Köçəryana dəstək verməsi əhəmiyyətli dərəcədə təsir göstərir. Bununla Rusiya həm də Paşinyanı sıxışdırır. Belə vəziyyətdə Paşinyan isə iddia edir ki, İrəvan Rusiya ilə münasibətlərdə çoxəsrlik komplekslərdən yaxa qurtarmalı və özünü bərabər tərəfdaş kimi göstərməlidir. "1.in.am" portalı bu xüsusda yazır ki, Paşinyan Ermənistan-Rusiya münasibətlərində "mütiliyi aradan qaldırır". Qeyd olunur ki, rusiyalı siyasi fəal, Rusiyada qadağan edilmiş "Rus etnosiyasi birliyi" təşkilatının Kaluqa bölməsinin sabiq rəhbəri, Ermənistanda qaçqın statusu almış Vitali Şişkinin ətrafında yaranmış vəziyyət buna əyani sübut hesab edilməlidir. O da bildirilir ki, Ermənistanın hakimiyyət orqanları "Moskvaya elə onun özü kimi cavab verməklə" tam layiqli hərəkət ediblər.

Lakin erməni ekspertlər hesab edirlər ki, Paşinyanın Moskvaya dirəniş cəhdi sonda Ermənistanın daha böyük təzyiqlər dalğası ilə üzləşməsinə gətirib çıxaracaq. Köçəryan ətrafında baş verənlər və Moskvadan İrəvana ünvanlanan xəbərdarlıqların artması da bunu təsdiq edir.

Ermənistanın sabiq mədəniyyət naziri Akob Movses xatırladır ki, Moskva ona bağlı keçmiş hakimiyyət nümayəndələrini hərəkətə gətirib. Onun sözlərinə görə, Rusiyadan dəstək alan Serj Sarkisyan və Robert Köçəryanın təsiri heç də zəifləməyib: "Təəssüf ki, ölkəmizdə hazırda ikili hakimiyyət mövcuddur. Bizim qanuni hökumətimiz və pul hökumətimiz var. Ən qorxulusu odur ki, keçmiş oliqarxik hakimiyyət həm təbliğat, həm də xalq üzərində təsir baxımından hazırda heç də az hakim gücə malik deyil. Əlbəttə, bu, vətəndaş müharibəsi vəziyyətidir, bu vəziyyətdə nifrət alovlanır.

Sabiq hökumət iqtidarda olduğu zaman topladığı hər şeyi aparıb, indi özünün hakimiyyətdən uzaqlaşmasına dözə bilmir və geri qayıtmaq istəyir. Rusiyadan dəstək isə onları daha da həvəsləndirir". Onun fikrincə, keçmiş hakimiyyət başqa adla və ya başqa maska altında Rusiyanın dəstəyi ilə geri qayıtsa, Ermənistan daha pis vəziyyətə düşəcək.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qarabağ probleminin həlli üçün tarixdə misli olmayan şans açılır...

## *Rusiya ilə münasibətlər daha da pisləşir, Avropanın nəzərində Ermənistan gərəksiz ölkəyə çevrilir...*

**Cənubi Qafqazda ümumi geosiyasi mənzərəyə nəzər salanda bir daha aydın olur ki, işğalçı Ermənistan regionda təhlükəsizlik mühitinə xələl gətirən tərəf qismində qalmaqda davam edir. Belə ki, Ermənistanın davam edən təcavüz siyasəti regionda hər an yeni savaşı alovlandırmaq iqtidarındadır.**

Bunu artıq dünya dövlətləri də aydın görür və o da çox gözəl sezilir ki, regionda qeyri-müəyyənlik yaratmağa çalışan tərəf kimi İrəvanın addımları destruktiv nəticələrə gətirib çıxara bilər.

Hazırda Ermənistanın hərəkətləri bu qənaətə gəlməyə əsas verir ki, sözügedən ölkə rəhbərliyi Dağlıq Qarabağda yeni müharibə arzulayır. Bunu rusiyalı hərbi politoloq Aleksandr Perenciyev də təsdiq edir. Ekspert vurğulayır ki, Ermənistan Qarabağ məsələsində qeyri-konstruktiv mövqeyindən geri çəkilmək niyyətində deyil. Bu vəziyyətdə isə Azərbaycan rəsmi İrəvanı danışıqlar prosesinin səmərəliliyini artırmağa, yeni artıq qəbul olunmuş sazişləri həyata keçirməyə məcbur etmək üçün Ermənistan hərbi birləşmələri ilə açıq hərbi qarşıdurmaya keçə bilər. Beynəlxalq vasitəçilər isə bu savaşı dayandırmaq üçün hərəkətə keçməlidir və bu da Azərbaycanın əsas istəyidir: "Mənim fikrimcə, rəsmi Bakı, belə olan halda, Ermənistan və ATƏT-in Minsk Qrupunun həmsədrlərindən bu yolla getməyi tələb etməlidir: danışıqlar prosesinin hazırkı formada heç bir irəliləyişə töhfə vermədiyini qəbul edin, həmçinin, prosesin səmərəliliyini artırmaq məqsədilə onu modernləşdirin".

Digər rus ekspert Aleksey Fenenko isə indiki vəziyyətdə Ermənistanın danışıqları açıq şəkildə pozan tərəf olduğunu diqqətə çatdırır. Onun sözlərinə görə, Ermənistanın Baş naziri Nikol Paşinyan verdiyi bəyanatlarla Dağlıq Qarabağ münaqişəsinin həllinə dair 2016-cı ildə əldə edilmiş razılaşmaları pozur: "Moskvadan baxanda Paşinyanın "Qarabağ Ermənistandır" açıqlaması qəribə gəlir, çünki 2016-cı ilin iyun ayında Sankt-Peterburqda Qarabağ münaqişəsinin Rusiyanın vasitəçiliyilə həll olunmasına dair plan razılaşdırılmışdı". Ekspertin fikrincə, bu kimi bəyanatların məqsədi Rusiya tərəfini sərt cavab tədbirlərinə təhrik etməkdir: "Əslində, bu açıqlama 2016-cı ilin bütün razılaşmalarından geri çəkilmək deməkdir. Belə çıxır ki, Ermənistanın bu məsələdə birinə daban-dabana zidd iki mövqeyi var. Məntiqlə o, Rusiyanın əsəbiləşəcəyinə, bununla da münaqişəyə dair görülən bütün işləri sıfırlamaq üçün gözəl fürsət ələ keçəcəyinə bel bağlayırdı".

Xatırladaq ki, bundan əvvəl Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Paşinyanın bəyanatını şərh etmişdi. Zaxarova bunun ümumi prosesə zərər gətirdiyini açıq etiraf edərək vurğulamışdı ki, Dağlıq Qarabağ münaqişəsi uzun müddətdir davam edən və çətin problemdir: "Azərbaycan və Ermənistan arasında münaqişə çox çətin bir prosesdir. Bu baxımdan bəyanatlara diqqət edilməlidir. Bu, başlanğıc nöqtəyə qayıtmamağımız və prosesin sıfıra düşməməsi üçün vacibdir".

Aleksey Fenenko isə Mariya Zaxarovanın belə açıqlamasını təsadüfi saymır və qeyd edir ki, baş verənlər Rusiyada da qəzəblə qarşılanır. Ekspert bildirir ki, Paşinyanın Qarabağ məsələsi və xarici siyasətdə digər gedişləri, hələ də Qərbə meyllənmək cəhdləri Rusiyada ciddi narazılıqla qarşılanır. Bu fonda, Ermənistanın hazırkı rəhbərlərinin Avropa istiqamətli xarici siyasətinə toxunan rusiyalı ekspert Avropa İttifaqına həmsərhəd olmayan, Avropadan tam tədric olunan, dənizə yalnız Gürcüstan vasitəsilə çıxan bir ölkənin Avropaya hər hansı inteqrasiyası barədə bəhs etməyin yersiz olduğunu diqqətə çatdırıb: "Bu ölkənin, əslində, Avropa İttifaqına bir neçə növ bəzək daşdan başqa təklif etməyə heç nəyi yoxdur. Onun üçün də inteqrasiyaya ehtiyac yoxdur, elə həmin daşların tədarükünə dair İtaliya şirkətləri ilə müqavilə bağlasalar kifayətdir". Rusiyanın Ermənistandakı mövcud vəziyyətdən narahat olduğunu deyən ekspert səbəb kimi Ermənistanın Avrasiya İqtisadi İttifaqını tərk etməsi ilə bu təşkilata problemlər yaradacağa biləcəyini qeyd edib: "Ermənistanın üzvlükdən çıxması AİI-də böhran olduğu barədə səs-küyə rəvac verəcək". Bu səbəbdən ekspert Rusiyanın Ermənistana qarşı müəyyən cəza tədbirləri görəcəyini istisna etmir.

Ermənistanın Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov isə vurğulayır ki, Moskvanın cəza tədbirləri Qarabağ məsələsi, xarici siyasət, iqtisadi sferada İrəvanın daha zəif duruma düşməsi demək olacaq. Onun sözlərinə görə, bütün bunların əsas səbəbkarı isə Paşinyandır: "Sorosçu Paşinyan Ermənistanı Rusiyadan uzaqlaşdırır. Onun başçılıq etdiyi komanda və onun özü Rusiyanı müttəfiq kimi qəbul etmir". Keçmiş hakim partiyanın rəsmisi Paşinyanı Ermənistan-Rusiya münasibətlərinə zərbə vurmaqda ittiham edib: "Sorosçu bir adamın dəli kimi müttəfiqlik münasibətlərinə zərər verməsinə təəccüblənmədim. Üstəgəl, Baş nazirin sələhiyyətlərini yerinə yetirən bir şəxsin bu münasibətlərin pozulmasını səssiz izləməsi də təəccüblü deyil. Təkcə o yox, bütün komandası səssizdir. Ermənistanın təhlükəsizliyinin qarantiyası olan Rusiya ilə münasibətlər tamamilə korlanıb, onlar isə buna səs çıxarmırlar". Şarmazanov hazırkı situasiyada ikitərəfli münasibətlərin qırılmağa doğru getdiyini və buna görə Paşinyanın məsuliyyət daşıdığını bildirib. O hesab edir ki, Azərbaycanın Qarabağ məsələsində fəaliyyətini aktivləşdirməsi də Ermənistanda artıq heç kimi təəccübləndirməməlidir.

Bu arada, İrəvanda Moskva əleyhinə atılan daha bir addım fonunda, Kremlin Ermənistana qarşı siyasətini sərtləşdirməsi də qaçılmaz sayılır. Məsələ bundadır ki, Ermənistanda Rusiyanın sürücülük vəsiqələrini qadağan etməyi düşünürlər. Bu barədə isə sosial şəbəkənin erməni seqmentinin istifadəçiləri Ermənistan polisinin rəis müavini Ovannes Köçəryana istinadən informasiya yayıblar. Rəis müavini beynəlxalq daşınmalar həyata keçirən sürücüləri istisna etməklə ölkə ərazisində xarici sürücülük vəsiqəsinə sahib sürücülərin idarə etdiyi nəqliyyat vasitələrinin daşınma və xidmətinin qadağan ediləcəyini söyləyib: "Sözügedən qadağa bu dövlətlərin arasında qarşılıqlı dostluq münasibətləri saxlanıldığı halda Avrasiya İqtisadi İttifaqına üzv ölkələrin vətəndaşlarına şamil edilməyəcək". Burada bir sual yaranır, rəis müavininin işarə vurduğu, Ermənistanın dostu olmayan kimdir? Sosial şəbəkə istifadəçiləri bunun Rusiya olduğunu yazır. Burada onu da xatırladaq ki, Rusiya qanunvericiliyi xarici sürücülük vəsiqəsi olan əcnəbilərin (rus dilinin ikinci rəsmi dil olduğu ölkələr istisna olmaqla) Rusiyada sürücü işləməsini qadağan edir. Ermənistan rus dilinin heç bir statusu olmadığı yeganə Avrasiya İqtisadi İttifaqı ölkəsidir.

Ermənistan xarici işlər nazirinin müavini Şavarş Koçaryan bir qədər əvvəl sözügedən məsələyə münasibət bildirərkən qeyd edib ki, Rusiyada qəbul edilmiş qanun Ermənistana münasibətdə diskriminasiya xarakteri daşıyır. Çünki Ermənistandan başqa heç bir Avrasiya İqtisadi İttifaqı üzvünə qarşı bu cür tələb yoxdur. Bütün bunlara Ermənistanın siyasi sığınacaq verdiyi rus dissident Vitali Şişkinin də məsələsini əlavə etsək, o zaman mənzərə aydındır.

Xatırladaq ki, Rusiya vətəndaşı Vitali Şişkin anti-Rusiya fəaliyyəti, o cümlədən, ölkə rəhbərliyi və Prezident Putinə qarşı aksiyalarda özünü parlaq şəkildə göstərib. Şişkin sağ liberalların qeydiyyatdan keçməmiş partiyasının lideridir, avrointeqrasiya şüarları ilə çıxış edir və Qərb ölkələrinin Rusiyada müdafiəsinə qalxır.

"İravnuk" qəzeti yazır ki, belə məqamlar Rusiyanı Ermənistandan uzaqlaşdırmaqdan başqa heç nəyə xidmət etmir: "Rusiyanın Ermənistandan uzaqlaşması bizim faktiki olaraq tək qalmağımız deməkdir. Bax, onda bizim əsl çətinliklərimiz başlayacaq. Məsələn, onda Qarabağ müharibəsinin yenilənməsi qətiyyən istisna deyil. Azərbaycan yaranmış vəziyyətdən maksimal dərəcədə yararlanmağa çalışacaq. Bu prosesdə Türkiyə də ona kömək edəcək. Rusiyanın isə inciklik üzündən proseslərə kənardan seyrçi qalması Ermənistanı hansı aqibətin gözlədiyini aydın təsəvvür etməyə imkan verir".

Burada Azərbaycan-Rusiya münasibətlərinin yüksələn xətlə inkişaf etməsini də unutmaq olmaz. Aydındır ki, belə vəziyyət Qarabağ münaqişəsinin həllini tezləşdirmək iqtidarındadır. Yaxın Şərq və Qafqaz ölkələri üzrə rus ekspert Stanislav Tarasov da qeyd edir ki, bu durumda İrəvanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə real addımlar atması zərurətə və qaçılmaz reallığa çevrilir: "Ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin hazırda bir çox nüansı və şərtləri var. Məsələ sülh yolu ilə həll olunmasa, güc amili işə düşəcək. Beynəlxalq durum da bu xüsusda Azərbaycana lazımi imkanlar tanıyır".

Burada diqqətdən yayınmayan bir cəhət odur ki, Ermənistan rəhbərliyi artıq ona Qərbdə də etimadın kifayət qədər zəiflədiyini çox gözəl dərk edir. Paralel şəkildə Rusiya ilə də münasibətlərin indiki halda olduqca korlanması Ermənistanı daha zəif duruma düşürür. Rusiyanın dəstəyinin zəiflədiyi bir məqamda Ermənistanın Avropa ümidlərinin doğrulacağını söyləmək mümkün deyil. Çünki hazırda Ermənistan Avropa üçün qətiyyən maraqlı dövlət sayılmır. Bu isə o deməkdir ki, Ermənistanın xarici siyasəti tam şəkildə iflasa uğrayır və bu da Qarabağ münaqişəsinin həllini tezləşdirə biləcək faktorlar sırasında yer alır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Sosial şəbəkələrdə Qəbələ Rayon İcra Hakimiyyətinin keçirdiyi tenderlə bağlı yayılan məlumat geniş müzakirələrə səbəb olub. Həmin məlumatda qeyd edilir ki, Qəbələ Rayon İcra Hakimiyyəti müxtəlif mal və xidmətlərin alışını nəzərdə tutan 4 tenderə yekun vurub.**

# Qəbələ İcra Hakimiyyətinin 4 tenderini udan MMC - məsələ sosial şəbəkələrdə niyə müzakirəyə çıxıb...



***Qəbələ İcra Hakimiyyətinin rəsmisi:** "Tenderdə iştirak edən və uduzan başqa şirkət narazılıq etmirsə, onda jurnalistlər bundan niyə narahatdır?"*

Maraqlıdır ki, tenderlərin hamsını bir şirkət - "Qəbələ İnşaat" MMC qazanıb. Tenderlərin ümumi məbləği 112 min manat təşkil edib. Şirkətin qazandığı tenderlər və məbləğləri aşağıdakılardır:

1. Qəbələ Rayon İcra Hakimiyyəti məşğulluq tədbirlərinin həyata keçirilməsi üçün işçilərə yumşaq inventar xüsusi geyim ləvazımatlarının alınması (Mal materialların alınması) - 10490 AZN.

2. Qəbələ Rayon İcra Hakimiyyəti məşğulluq tədbirlərinin həyata keçirilməsi üçün işçilərə yumşaq inventar xüsusi geyim ləvazımatlarının alınması ( Yumşaq inventar xüsusi geyim ləvazımatlarının alınması) - 12973 AZN.

3. Qəbələ Rayon İcra Hakimiyyəti məşğulluq tədbirlərinin həyata keçirilməsi üçün işçilərə yumşaq inventar xüsusi geyim ləvazımatlarının alınması (Mal-material alınması) - 39 832 AZN.

4. Qəbələ Rayon İcra Hakimiyyəti məşğulluq tədbirlərinin həyata keçirilməsi üçün işçilərə yumşaq inventar xüsusi geyim ləvazımatlarının alınması (Yumşaq inventar xüsusi geyim ləvazımatlarının alınması) - 48194.5 AZN.

Ən maraq doğuran məsələ dörd tenderin eyni MMC tərəfindən udulmasıdır. Sosial şəbəkələrdə geniş müzakirə edilən bu məsələni biz də araşdırmaq qərarına gəldik. Tenderlərin qalibi olan "Qəbələ İnşaat" MMC ilə əlaqə saxlamaq üçün internet resurslarından onların əlaqə vasitələrini axtardıq. Təəssüflə qeyd etməliyik ki, MMC barədə heç bir məlumata rast gəlmədik. Qərara gəldik ki, Qəbələ Rayon İcra Hakimiyyətinin özü ilə əlaqə saxlayıb məsələyə aydınlıq gətirək. İcra Hakimiyyətinin İnformasiya təminatı və təhlil sektorunun müdiri Zahir Kərimov qəzetimizə açıqlamasında bildirdi ki, bu məsələ ətrafında yaradılan ajiotajı anlaya bilmir: "Bax, ilk jurnalistsiniz ki, mənə zəng vurursunuz. Ancaq hamı yazır ki, tenderi niyə eyni şirkət qazanıb? Təxəyüllə bu məsələni araşdırmaq olmur axı. Gərək əlaqə saxlayasan, tanış olasan, mövzunun nədən ibarət olduğunu dərindən öyrənəsən. Bilirsiniz ki, tender şəffaf şəkildə həyata keçirilən bir prosesdir. Onun elanı respublika səviyyəli dövlət qəzetlərində dərc edilir. Rayon İcra Hakimiyyəti bu məsələdə sifarişçidir. Bizim üçün fərq eləmir bu işi kim görəcək. Tenderdə hansı şirkət qalib gəlirsə, işi də ona veririk. İndi elə zəmanədir ki, nəyisə gizlətmək mümkün deyil. Bu gün siz istəsəniz, mənim nə qədər əməkhaqqı aldığımı da öyrənə bilərsiniz. Çünki bu məlumatların hamısı mərkəzləşmiş sistemdə oturur. Tenderlə bağlı onu deyim ki, camaatı çaşdıran qalib MMC-nin adının Qəbələ olmasıdır. Yaxşı, həmin şirkətin adı Bakı olsaydı, söz-söhbət bitəcəkdi? Axı bu, doğru yanaşma deyil. Yəqin elandan da görürsünüz ki, hər 4 tender oxşar sahəni əhatə edir, əsasən yumşaq inventarların alınmasını özündə əks etdirir. Əgər biri mebel almaq, digəri yol çəkməklə bağlı olsaydı, hardasa şübhə üçün əsas olardı. İndi bu MMC özünə yaxın rayonun lazımi sifarişini daha səmərəli yerinə yetirməyə hazırdırsa, burada təəccüblü nə ola bilər ki? Tenderdə iştirak edən və uduzan başqa şirkət narazılıq etmirsə, onda jurnalistlər bundan niyə narahatdır? Hər halda, ilkin narazılığı alternativ rəqib şirkətlər ifadə etməli idi. Belə bir reaksiya yoxdursa, deməli, prosesin şəffaflığına şübhə ola bilməz".

Biz İcra Hakimiyyəti rəsmisinin diqqətinə çatdırdıq ki, sözügedən qalib MMC ilə bağlı məlumatalma resurslarında informasiya tapa bilmirik. Bizi onlarla əlaqələndirə bilərmi? Zahir müəllim bildirdi ki, bunu etmək onun səlahiyyətinə aid məsələ deyil: "Mənim işim sizin kimi jurnalistləri informasiya ilə təmin etməkdir. Hansısa şirkətin koordinatlarını əldə etmək, təəssüf ki, səlahiyyətimə aid deyil, əzbərdən bilsəydim deyərdim".

***Məhəmmədəli QƏRİBLİ***

---

**2019-cu il avqustun 1-nə banklarda depozitlərin həcmi 19,045 mln manat olub ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 11 faiz artım deməkdir. Maliyyə Bazarlarına Nəzarət Palatasının verdiyi məlumata görə, bu il avqustun 1-nə fiziki şəxslərin depozitlərinin həcmi 8,472 mln. manat, 2018-ci ilin müvafiq dövründə isə 7,969 mln. manat olub. İllik müqayisədə cari ildə depozitlərin həcmi 6,3 faiz artıb.**

# Banklara qoyulan depozitlər artır, banklar isə ancaq kreditdən yüksək faiz gəlirləri götürmək barədə düşünür...




***Fikrət Yusifov:** "Hesab edirəm ki, bu çox pis tendensiyadır və banklar buna son qoymalıdırlar"*

Hüquqi şəxslərin depoziti isə 10,573 mln. manat təşkil edib. Hüquqi şəxslərin cəmi depozitləri iyul ayında 3.7% (375.7 mln. manat) artaraq 10,573.2 mln. manata çatıb. Ay ərzində müddətli depozitlər 11.4% (257.6 mln. manat) artaraq 2,510.8 mln. manat təşkil edib. Milli valyutada olan depozitlər 6.9% (274.0 mln. manat) artaraq 4,246.3 mln. manata, xarici valyutada olan müddətli depozitlər isə 12.3% (249.8 mln. manat) artaraq 2,285.5 mln. manata çatıb.

Görünən odur ki, bankların həm milli, həm də xarici valyutada olan depozitlərinin artmasına baxmayaraq, banklar kredit faizlərini aşağı salmaq barədə düşünmürlər. Hansı ki, bu onların maliyyə resurslarını artırır. Ancaq banklar əvvəlki qaydada daha çox vəsait əldə etmək üçün kredit faizlərini endirməkdən imtina edirlər. Bu isə fiziki şəxslərin, o cümlədən, sahibkarlırın böyük əksəriyyətinin ucuz kreditlərə çıxış imkanlarını əngəlləyir. Hazırda yeni kredit götürənlər, o cümlədən, sahibkarlar daim faiz dərəcələrinin yüksək olmasından şikayətlənir.

O baxımdan bankların bu ədalətsiz kredit siyasətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifov bununla bağlı bankları kəskin tənqid etdi: "Bu, bank-maliyyə sektorunda ən təəssüf edilən məqamdır. İllərlə bu barədə deyilib, danışılıb, tənqid olunub. Prezident bir neçə dəfə bununla bağlı çox ciddi şəkildə iradlarını bildirib. Ancaq çox təəssüf ki, banklar özlərini intizamsız aparırlar. Yəni banklar sadəcə olaraq bir prinsiplə işləyirlər. Ucuz bank əməliyyatları həyata keçirməklə daha çox pul qazanmaq prinsipilə fəaliyyət göstərirlər. Əslində isə belə olmamalıdır. Son bir neçə il ərzində hansı bank normal bir biznes layihəsinə kredit verib? Praktiki olaraq dərindən araşdırsaq görərik ki, heç biri. Biznes sahəsinə kredit vermədən sahibkarlığı necə inkişaf etdirmək olar? İş adamının ya özünün vəsaiti olmalıdır, ya da kredit götürməlidir. İnsanların da əksəriyyətinin vəsaiti yoxdur. On adamdan 9-nun vəsaiti yoxdur. Bu o deməkdir ki, bir adamda şəxsi vəsait ola bilər. Deməli, 9 insan biznes qurmaq istəyir, amma bunun mənbəyi yoxdur. Ona görə də banklar bu barədə düşünməlidirlər. Banklar isə depozitləri aşağı faizlə qəbul edib yüksək faizlə kredit verirlər. Belə ki, banklar 20-28 faizlə kredit verir. Bu cür kredit siyasəti ilə banklar uzağa gedə bilməz. Banklar 2015-ci ildə baş verən devalvasiyadan nəticə çıxarmalıdırlar. Ancaq təəssüflər olsun ki, biz bunu görmürük. Problemli kreditlərlə bağlı dövlətin verdiyi dəstəyə rəğmən, ortada heç bir nəticə yoxdur. Banklar yenə kredit faizlərini yüksək saxlamaqdadırlar. Hesab edirəm ki, bu çox pis tendensiyadır və banklar buna son qoymalıdırlar".

*"Bu cür kredit siyasəti ilə banklar uzağa gedə bilməz"*

***Vidadi ORDAHALLI***

# Təhsil Nazirliyinin yeni İctimai Şurasını digər nazirliklərin şurasından fərqləndirən əsas cəhət...

## *İlqar Orucov: "Başqa nazirliklərin, eləcə də mərkəzi icra hakimiyyətlərinin yanında fəaliyyət göstərən ictimai şuraların bir çoxunda həmin qurumların özlərinin əməkdaşları təmsil olunur"*

**Paytaxtımızda həm iri ticarət mərkəzlərinin nəzdində, həm də müstəqil olaraq bir neçə kinoteatr fəaliyyət göstərir. Bu gün həmin kinoteatrlarda əsasən xarici filmlər nümayiş olunur. Bununla yanaşı, son dövrlər özəl prodakşınlar tərəfindən çəkilən ucuz komediyalar da kinoteatrlarda nümayiş olunan nümunlər sırasındadır.**

Son illər ictimaiyyət və rəsmi qurumlar arasında əlaqələrin qurulması, vətəndaşları narahat edən məsələlərin daha operativ şəkildə həll edilməsi üçün müxtəlif nazirliklərin tərkibində ictimai şuralar yaradılıb. Onu da bildirək ki, əksər ziyalı və ictimiayyət nümayəndələri nazirliklərdə fəaliyyət göstərən ictimai şuraların fəaliyyətindən o qədər də razı deyil. Onlar bildirirlər ki, bu şuralarda ictimaiyyət təmsilçiləri formal olaraq təmsil olunur, şuraların əsas üzvləri isə nazirliklərin, dövlət qurumlarının öz işçilərindən ibarət olur.

Bir müddət əvvəl Təhsil Nazirliyində də İctimai Şuranın yaradılması ilə bağlı xəbərlər yayıldı. İctimaiyyətin maraq dairəsində olan Təhsil Nazirliyində yaradılan şuranın tərkibində kimlərin təmsil olunacağı sualları var idi. Artıq Təhsil Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib və şura üzvlərinin siyahısı məlum olub.

Təhsil nazirinin müavini, Seçki Komissiyasının sədri Firudin Qurbanov nazirlik yanında İctimai Şuranın yaradılmasının əhəmiyyətini vurğulayıb və qeyd edib ki, İctimai Şura təhsil sahəsində müxtəlif məsələlərin müzakirəsi üçün məsləhətləşmələr təşkil edən, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı nazirliyə təkliflər verən və qanunvericiliklə müəyyən edilmiş digər hüquqlara malik olan məşvərətçi qurum olacaq.

Bildirək ki, şura üzvləri səsvermə ilə seçilib. Səsvermənin nəticəsinə əsasən, İlqar Orucov, Şahlar Əsgərov, Etibar Əliyev, Nadir İsrafilov, Ülviyyə Mikayılova, Elmina Kazımzadə, Anar Vəliyev, Mirzə Cəfərzadə, Asif Cahangirov, Mais Əliyev və Hikmət Əlizadə İctimai Şuraya üzv seçiliblər.

Məlumat üçün bildirək ki, Təhsil Nazirliyi yanında İctimai Şura təhsil naziri Ceyhun Bayramovun 11 iyul 2019-cu il tarixli əmrinə əsasən yaradılır. Şuranın yaradılmasında əsas məqsəd nazirliyin fəaliyyətində şəffaflığı artırmaq, eyni zamanda, təhsil sahəsində ictimaiyyətlə qarşılıqlı fəaliyyəti gücləndirməkdir.

İctimai Şuraya namizədliyə və seçici qismində iştirakla bağlı Təhsil Nazirliyinə (elektron qaydada və ya Vətəndaşların Qəbulu Mərkəzinə) 125-dən çox müraciət daxil olub. Sənədləri qanunvericilikdə nəzərdə tutulmuş tələblərə uyğun olan 44 seçici və 34 namizəd rəsmi qeydiyyata alınıb. Həmin müraciətlər Təhsil Nazirliyinin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrindən təşkil olunmuş Seçki Komissiyası tərəfindən yoxlanıb. Komissiyaya Təhsil Nazirliyinin 4 və vətəndaş cəmiyyəti institutlarının 5 nümayəndəsi daxildir.

Təhsil Nazirliyinin yeni İctimai Şurasını digər nazirliklərin şurasından fərqləndirən əsas cəhət nədir?

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, İctimai Şuranın üzvü İlqar Orucov bu barədə bizimlə söhbətində bildirdi ki, Təhsil Nazirliyi yanında yaradılan şuranın çox böyük ictimai-sosial, siyasi əhəmiyyəti var. "Təhsil Nazirliyi yanında İctimai Şuraya seçkilər çox şəffaf şəkildə keçirildi. Təhsil sahəsində kifayət qədər təcrübəsi olan, cəmiyyətdə qəbul edilən təhsil ekspertləri, eləcə də vətəndaş cəmiyyətində təmsil olunan və təhsillə əlaqəli insanlar şura üzvləri sırasında yer aldılar. 34 nəfər içindən ən çox səs toplayan şəxslər İctimai Şurada yer aldı. Hesab edirəm ki, tədris ilinə qədər İctimai Şuranın iclası keçiriləcək və şuranın rəhbərliyi müəyyənləşdiriləcək, eyni zamanda, şuranın fəaliyyətini tənzimləyəcək bəzi sənədlər, normativ aktlar qəbul ediləcək. Əlbəttə ki, müstəqil şəkildə Təhsil Nazirliyi yanında məşvərətçi şura kimi öz sözünü deyəcək. Burada təmsil olunanların peşəkarlığına və təcrübəsinə arxayın olub demək istəyirəm, şura öz müsbət fəaliyyəti ilə yadda qalacaq. Ümumilikdə, İctimai Şura ölkəmizdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən təhsil siyasətinin daha yaxşı formada reallaşması istiqamətində öz sözünü deyəcək. Təhsil Nazirliyi İctimai Şuranın yaradılması ilə bağlı komissiya yaradarkən ilk növbədə çox ciddi sənədlər tələb olundu, bəzi namizədlər vətəndaş cəmiyyəti tərəfindən yaxşı qarşılanmadı. Amma bu başadüşüləndir. Təhsil sahəsi elə bir məfhumdur ki, o, bütövlükdə, dövlətin təhsillə bağlı gələcəyini, insan kapitalını formalaşdıran bir sahədir. Bu baxımdan, Təhsil Nazirliyinin İctimai Şurasına hər adam namizədliyini verə bilməzdi".

İ.Orucov qeyd etdi ki, bəziləri bu sahə ilə əlaqəsi olmadığı halda, şuraya üzv olmaq istəyib və bununla bağlı sosial şəbəkələrdə həqiqətəuyğun olmayan fikirlər yayımlayırlar. "Bəziləri seçilmiş şura üzvlərinə qara yaxmağa başladılar. Amma reallıq ondan ibarətdir ki, İctimai Şuraya keçirilən seçkilərdə vətəndaş cəmiyyətinin kifayət qədər tanınan nüfuzlu simaları, eyni zamanda da kütləvi informasiya vasitələrinin populyar simaları komissiyanın tərkibində təmsil olunurdu. Bütövlükdə, həm onların, həm seçicilərin, həm namizədlərin, həm də bu prosesi izləyən və işıqlandıran KİV-in gözləri qarşısında çox şəffaf, aşkar seçki keçirildi. Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvlüyünə seçilən şəxsləri, təhsillə, elmlə bağlı mütəxəssisləri ictimaiyyət yaxşı tanıyır və onların müsbət istiqamətdə fəaliyyət göstərəcəklərinə inanır. Bu şuranı başqa nazirliklərin tərkibində fəaliyyət göstərən şura üzvlərindən fərqləndirən cəhətlər çoxdur. Qeyd edim ki, ilk növbədə, bu şurada təhsillə əlaqəsi olan, bütün prosesləri bilən, Azərbaycan təhsilinin inkişafına təkan verən insanlara üstünlük verilib. Əsas odur ki, İctimai Şurada mütəxəssislər, şuranın gələcək fəaliyyətinə müsbət təsir edəcək adamlar seçilib. Burada yaşlı nəslin nümayəndələri də təmsil olunurlar. Təhsil elə bir sahədir ki, mütləq burada təcrübə öz sözünü deyir".

İ.Orucov bildirdi ki, İctimai Şuranın fəaliyyərti olduqca faydalı olacaq, ölkəmizdə təhsillə bağlı dövlətin həyata keçirdiyi siyasətə dəstək olacaq. Digər nazirliklərin nəzdində yaradılan ictimai şuralarla Təhsil Nazirliyi yanında yaradılan İctimai Şuranı müqayisə edən İ.Orucov vurğuladı ki, indiyə qədər nazirliklərin, mərkəzi icra hakimiyyətlərinin nəzdində yaradılan ictimai şuralarda həmin qurumların öz nümayəndələri təmsil olunur.

"Başqa nazirliklərin, eləcə də mərkəzi icra hakimiyyətlərinin yanında fəaliyyət göstərən ictimai şuraların bir çoxunda həmin qurumların özlərinin əməkdaşları təmsil olunur. Təhsil Nazirliyi yanında yaradılan İctimai Şurada isə yalnız ictimaiyyət nümayəndələri yer alıb, burada nazirliyin heç bir nümayəndəsi təmsil olunmur" - deyə İ.Orucov bildirdi.




*"Təhsil Nazirliyi yanında yaradılan İctimai Şurada isə yalnız ictimaiyyət nümayəndələri yer alıb, burada nazirliyin heç bir nümayəndəsi təmsil olunmur"*

***İradə SARIYEVA***

# Kartof istehsalı sürətlə artır, bazarlarımızda qiymət isə...

**Məlum olduğu kimi, Azərbaycanda bu il kartof istehsalı artıb. Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumatda qeyd olunur ki, 2019-cu ilin yanvar-iyul aylarında 34 min hektar sahədən 576,3 ton kartof yığılıb. Bu isə əkilən ümumi sahənin 60,1 faizinin yığılması deməkdir.**



## *Nicat Nəsirli: "Ölkədə kartof istehsalı hər il ümumi istehlakı dəfələrlə üstələyir"*

Hazırda kartof yığımı davam edir. Nazirlikdən bildiriblər ki, 2019-cu ilin yanvar-iyul aylarında kartof yığımı ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,9 faiz, sahəyə düşən məhsuldarlıq isə 7 faiz artıb: "Ötən illə müqayisədə bu il kartof daha az sahədə əkilib. Belə ki, 2018-ci ildə 59,3, 2019-cu ildə isə 56,9 min hektar sahədə kartof əkilib".

Danılmaz faktdır ki, kartof gündəlik qida rasionunun əsas tərkib hissələrindən birini təşkil edir. Bu səbəbdən də adıçəkilən məhsulun məhsuldarlığının artması sevindiricidir.

Məhsuldarlığın artması ixraca da təsir edib. Nazirliyin yaydığı məlumatda o da bildirilir ki, Azərbaycanda yetişdirilən kartofun bu il 8 ölkəyə ixracı həyata keçirilib. Azərbaycan bu il Belarusa 120,3 ton, Gürcüstana 2821,7 ton, Moldovaya 199,3 ton, Qazaxıstana 59 ton, Rusiyaya 55 min 786,8 ton, Türkmənistana 62 ton, İraqa 23,3 ton, Ukraynaya isə 2 483,2 ton kartof ixrac edib.

Məlumat üçün bildirək ki, Azərbaycanda kartofun orta tez yetişən "Nevski", "Oqanyol", "Laymdots", "Əmiri-600", "Sevinc" sortları yetişdirilir. Bütün bölgələrdə il ərzində bir neçə dəfə yetişdirilən kartof məhsulu daha çox Tovuz-Gədəbəy, Astara-Lerik və Quba-Qusar rayonlarında becərilir və yüksək məhsul verir.

Maraqlıdır, istehsalın artması qiymətə təsir edəcəkmi? Aqrar sahə üzrə ekspert Nicat Nəsirli bildirdi ki, ölkədə kartof istehsalı hər il ümumi istehlakı dəfələrlə üstələyir: "Bu sahəyə göstərilən dövlət dəstəyi, eləcə də məhsulun bazarda əlverişli mövqe qazanması ildən-ilə bu sahəyə marağı artırır. Dövlət tərəfindən ötən il ölkədə istehsal olunan kartofun daxili bazarlarda realizə olunması, fermerlərin ziyan çəkməməsi niyyəti ilə 375 saylı qərar qəbul edildi, nəticədə üç ay müddətində daxili bazar qorunmuş oldu. Qərarın əsas məqsədi məhsuldarlıq və əkin sahələrinin ötən illə müqayisədə artması ilə əlaqədar olaraq, kartofun satış probleminin həlli və eləcə də kartofun satış qiymətinin istehsalçı və istehlakçı üçün optimallaşdırmaq və kartof istehsalçılarında qiymətlərin həddən artıq aşağı düşməsi ilə əlaqədar yaranmış mənfəət itkisinin qarşısının alınması idi. Qısamüddətli qadağa hər iki məqsədə çatmağa imkan verdi. İlk növbədə yerli istehsalçıların əlində qalmış böyük həcmdə məhsul öz bazarlarımızda realizə olundu. Digər tərəfdən, əsas istehsalçı rayonlar olan Gədəbəy, Şəmkir, Tovuzda istehsal olunmuş kartofun qiymətində nisbətən yüksəlmə baş verməklə, fərdi istehsalçıların mənfəət itkisi minimuma endirildi. Həmin qərar kənd təsərrüfatı məhsulları bazarının tənzimlənməsi sahəsində dövlət üçün səmərəli intervensiya aləti rolunu oynadı. Belə ki, Azərbaycanın əsas idxal kartof bazarını formalaşdıran İran və Rusiyada milli valyutanın zəifləməsi fonunda bu ölkələrdən böyük həcmdə məhsul ölkəmizə daxil olaraq yerli istehsala ciddi mənfi zərbə vura bilərdi. Azərbaycana hər il İrandan 50 min, Rusiyadan isə 43 min tondan çox kartof gəlir. Dövlət çevik addım ataraq ölkəyə idxal edilən kartofun tarif dərəcəsini iki dəfə artıraraq 30 faizə qaldırdı, yerli bazar qorundu, istehsalçı əlindəki məhsulu bazara təklif etməklə, ziyana düşməkdən sığortalandı. Əkin sahələrində "ikinci çörəy"in məhsuldarlığı artaraq, hektardan 15 tona, istehsal həcmi isə 914 min tona çatıb. Əhalinin illik tələbatı isə adambaşına düşən kartof istehlakı üzrə 74,29 kq nəzərə alınmaqla 2018-ci il üçün cəmi kartof istehlakının 743 min ton olacağı proqnozlaşdırılırdı. Tələbatdan artıq qalan 171 min tonluq həcmin milli valyutaların ucuzlaşdığı bir fonda, ixracı real görünmürdü. Ona görə alternativ çıxış yolu intervensiya alətini hərəkətə gətirmək idi. Lakin bütün bunlar idxal üzrə rəqəmləri təkzib edə bilməz. Havaların soyuduğu noyabrdan başlayaraq kartofa tələbat sürətlə artmağa başlayır və bu tendensiya aprelə qədər davam edir. Ölkəyə payız-qış mövsümündə 160 min tona qədər kartof gətirilir, bu, ölkə tələbatının 16%-ini təşkil edir".

*"Hazırda milli kartof toxumçuluğunun qurulması üzrə işlər aparılır"*

Həmsöhbətimiz hesab edir ki, qeyd olunan sahənin inkişafı ilə bağlı müxtəlif işlər görülə bilər: "Məlumdur ki, son illər kartof sahələri genişlənir, lakin məhsuldarlıqda maksimum nəticələr hələ əldə olunmayıb. **Bunun üçün toxumçuluq sistemi qurulmalıdır. Toxum tələbatının yalnız 2 faizi yerli istehsal hesabına ödənilir, böyük hissəsi idxal edildiyindən, məhsuldarlıq yaxın hədəf olaraq qalır. Hazırda milli kartof toxumçuluğunun qurulması üzrə işlər aparılır".**

***Günel CƏLİLOVA***

# Uğurlu nəticə göstərməyən məktəblər barədə hansı ciddi ölçülər götürülə bilər...

**"Şagirdləri uğurlu nəticə göstərməyən məktəblərlə bağlı tədbirlər görüləcək". Bu sözləri təhsil nazirinin müavini Məhəbbət Vəliyeva jurnalistlərə açıqlamasında bildirib. O qeyd edib ki, ümumtəhsil müəssisələrinin vəzifəsi məzunu ali məktəbə hazırlamaq deyil, onların qarşısında duran əsas vəzifə dövlət, cəmiyyət üçün sağlam vətəndaş yetişdirməkdir.**



## *Kamran Əsədov: "Böyük rayonların bir qismində məzun sayı çox olsa da, tələbə adını qazanan gənclərin sayı azdır"*

M.Vəliyeva bildirib ki, ali məktəbə qəbul olunmayan şagirdlər buna səbəb kimi təhsil aldıqları məktəbi göstərirlər: "Təbii ki, məktəb təlim-tərbiyə prosesini elə təşkil etməlidir ki, şagird gələcəkdə təhsilini davam etdirmək istəyində olsun. Bu işi lazımi şəkildə təşkil etməyi bacarmayan məktəblərlə bağlı Təhsil Nazirliyi ciddi tədbirlər görür. Növbəti dərs ilində bu ilin nəticələrinə əsasən şagirdləri uğurlu nəticə göstərməyən məktəblərlə bağlı müvafiq addımlar atılacaq".

Onu da qeyd edək ki, ali məktəbə qəbul imtahanında yüksək nəticə göstərən və göstərməyən rayonların adları açıqlanıb.

İlk 20-liyi təqdim edirik: Qubadlı - 77% (297 nəfər), Şəki - 73% (841 nəfər), Mingəçevir - 73% (460 nəfər), İsmayıllı - 73% (400 nəfər), Qax - 72% (215 nəfər), Neftçala - 71% (223 nəfər), Balakən - 67% (284 nəfər), Oğuz - 66% (209 nəfər), Ağcabədi - 65% (449 nəfər), Zaqatala - 63% (435 nəfər), Qazax - 63% (305 nəfər), Kürdəmir - 61% (294 nəfər), Gəncə - 58% (1178 nəfər), Sabirabad - 58% (345 nəfər), Yevlax - 58% (318 nəfər), Qəbələ - 54% (485 nəfər), Biləsuvar - 53% (262 nəfər), Ucar - 51% (189 nəfər), Ağdaş - 48% (310 nəfər), Masallı - 42% (546 nəfər).

Məlumat üçün bildirək ki, bu siyahını təhsil eksperti Kamran Əsədov şəxsi "Facebook" səhfəsində paylaşıb.

Maraqlıdır, şagirdləri uğurlu nəticə göstərməyən məktəblərlə bağlı nə kimi tədbirlər görüləcək?

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, hər il ölkədə kifayət qədər şəxs məzun olur: "Keyfiyyət göstəricisi ondan ibarətdir ki, məzun olan gənclərin neçə faizi ali məktəbə sənəd verib və onlar arasında neçə nəfər tələbə adını qazanıb. Bakı Şəhər Təhsil İdarəsinə tabe olan məktəblərdən 19 722 şəxs məzun olub. O məzunların 17 468-i ali təhsil müəssisələrinə qəbul olunmaq üçün sənəd verib. Bunlardan yalnız 10000 məzun ali məktəbə qəbul olunub. Bu o deməkdir ki, məzunların 52 faizi tələbə adını qazana bilib".

Həmsöhbətimizin sözlərinə görə, böyük rayonların bir qismində məzun sayı çox olsa da, tələbə adını qazanan gənclərin sayı azdır: "Cəlilabad rayonunda 1582 nəfər məzun olsa da, 363 nəfəri tələbə adını qazana bilib. Tovuz rayonunda da analoji hal yaşanıb. Belə ki, bu rayonda 1542 nəfər məzun olmağına baxmayaraq, 471 nəfəri ali məktəbə qəbul olunub. Təəssüf ki, bu hal bir çox rayonda qeydə alınıb. Yüksək nəticə göstərən məzunların sayı azdır. Ümumiyyətlə, ölkə üzrə məzunların 73 faizi ali məktəbə sənəd verib, sənəd verənlərin isə 39 faizi qəbul olunub. Bu statistika onu göstərir ki, Azərbaycanda ali təhsilli insanların sayı azalır.

*"...bunun da səbəbi məktəbi bitirən gənclərin orta məktəb proqramını mənimsəməməsi ilə bağlıdır"*

Bəzi bölgələrdə məzunların sayı ilə qəbul olunanların arasında təhlükəli məqam var. O məzunlar orta məktəb proqramını mənimsəməyiblər. Xüsusilə də riyaziyyat və ingilis dili dərsi ilə bağlı problem var. Bu problemlərin həll olunması üçün müəyyən işlər görmək lazımdır. Keyfiyyətin artması üçün konkret iş görmək lazımdır. Keyfiyyətin artması üçün dövlətin tələb etdiyi ay ərzində bir dəfə məktəblərdə imtahanlar keçirilməlidir ki, qəbul imtahanında keyfiyyət göstəricisi yüksəlsin".

***Günel CƏLİLOVA***

# Albert Aqarunova heykəl qoyulmasının Azərbaycan üçün böyük önəmi...

***Vaqif Abışov:** "Milli Qəhrəman Albert Aqarunova Bakının mərkəzində, onun adını daşıyan küçədə abidə qoyulmasının beynəlxalq əhəmiyyəti də çoxdur"*

**Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda şəhid olan cəsur, qorxmaz vətən övladları arasında qeyri-azərbaycanlıların da olması onların Azərbaycana qəlbən bağlı olmasının təzahürüdür. Belə cəsur vətən övladlarından biri də Azərbaycanın Milli Qəhrəmanı, yəhidi əsilli Albert Aqarunovdur.**

8 may 1992-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə snayper gülləsinə tuş gələn və döyüş meydanında qəhrəmancasına həlak olan Albert Aqarunova Bakıda abidə ucaldılıb. Bu günlərdə isə Milli Qəhrəmanın abidəsinin təntənəli açılış mərasimi keçiriləcək.

Doğulduğu Azərbaycan torpağını ürəkdən sevən və vətənimizin ərazi bütövlüyü uğrunda canını belə əsirgəməyən A.Aqarunov 1969-cu il aprelin 25-də Bakının Əmircan qəsəbəsində, yəhudi ailəsində anadan olub. 1992-ci ildə Albert Aqarunov könüllü olaraq cəbhəyə yollanıb. Tank komandiri təyin edilən A.Aqarunov Şuşa cəbhəsində döyüşüb. O, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edib. Ermənilərin Şuşaya hücumu vaxtı A.Aqarunov düşmənin 9 tankını, 7 ZTR və bir çox texnikasını məhv edib. A.Aqarunov Bakıda Şəhidlər Xiyabanında dəfn edilib.

Bu il Milli Qəhrəmanın 50 illik yubileyidir. Qeyd edək ki, Milli Qəhrəmanın xatirəsinin əbədiləşdirilməsi istiqamətində böyük işlər görülüb. Belə ki, Bakıda vaxtilə təhsil aldığı 154 nömrəli məktəb və Nərimanov rayonunda küçə onun adını daşıyır. Məktəbin önündə Milli Qəhrəmanın büstü qoyulub. 2015-ci ildə "The Times of Israel" qəzetində amerikalı ravvin İsrail Barukun "Müsəlman torpağında yəhudi əsgəri" məqaləsi Aqarunova həsr olunub. 2017-ci ildə A.Aqarunovun Suraxanı rayonunun Əmircan qəsəbəsində yaşadığı binada xatirə lövhəsinin açılış mərasimi keçirilib. 2019-cu ildə Bakının Nərimanov rayonunda ona heykəl qoyulub. 2010-cu ildə "Salnamə" sənədli filmlər studiyası "Qarabağ qəhrəmanları" silsiləsindən onun haqda "Dostuma məktub" filmini çəkib. Filmin ssenari müəllifi və rejissoru Yefim Abramovdur. 2017-ci ildə Səadət Şükürova A.Aqarunov haqqında "Yaşadığım torpaq" sənədli filmini çəkib.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli, 833 saylı fərmanı ilə Aqarunov Albert Aqarunoviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına, 2016-cı ildə isə Milli Qəhrəman "Həzi Aslanov" medalına layiq görülüb.

Nərimanov rayonunda Milli Qəhrəman A.Aqarunovun heykəlinin qəhrəmanın adını daşıyan küçədə ucaldılmasının böyük tarixi əhəmiyyəti olduğunu deyən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmlər doktoru Vaqif Abışov bizimlə söhbətində bildirdi ki, A.Aqarunovun xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən işlərin əhəmiyyəti yalnız ölkə üçün deyil, həm də beynəlxalq səciyyə daşıyır. Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi uğrunda gedən döyüşlərə könüllü qatılan A.Aqarunovun göstərdiyi şücaətin misilsiz olduğunu deyən V.Abışov hesab edir ki, o, bu addımı ilə yalnız yəhudi xalqının deyil, həm də Azərbaycan xalqının, torpağının övladı olduğunu sübut edib. "Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan vətən oğulları sırasında A.Aqarunov və digər qeyri-türklərin olması onu deməyə əsas verir ki, milliyyətindən, dinindən asılı olmayaraq, bu torpaqda doğulan hər bir Azərbaycan vətəndaşı ölkəmizin müdafiəsinə hazır olub. Əlbəttə, A.Aqarunovun misilsiz qəhrəmanlığı, erməni işğalçılarına qarşı mübarizəsi, vətən uğrunda şəhid olması qürurvericidir. Aqarunovun xatirəsinə abidə ucaldılmasının mühüm cəhətlərindən biri ondan ibarətdir ki, Azərbaycanın azadlığı, ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanlar unudulmur və onların xatirəsi əziz tutulur, əbədiləşdirilir. Ona heykəl qoyulmamışdan əvvəl də xatirəsinin əbədiləşdirilməsi istiqamətində dövlət tərəfindən mühüm işlər görülüb. Hesab edirəm ki, Milli Qəhrəman A.Aqarunova Bakının mərkəzində, onun adını daşıyan küçədə abidə qoyulmasının beynəlxalq əhəmiyyəti də çoxdur. Bu məsələ bütün dünyanın diqqət mərkəzindədir. Bu gün Azərbaycanı dünyanın hər yerində ciddi şəkildə izləyirlər. Ölkəmiz bununla bir daha göstərir ki, Azərbaycan torpaqlarının ərazi bütövlüyü uğrunda həlak olan hər bir insan, qəhrəman unudulmur və onların adları nəsillərdən-nəsillərə keçir. A.Aqarunova abidə ucaldılması həm Azərbaycan və yəhudi xalqlarının bir-birinə qırılmaz tellərlə bağlı olduğunu, həm də dövlətimizin öz qəhrəmanına bəslədiyi ehtiramı göstərir. Onu da deyim ki, A.Aqarunovun bədii ədəbiyyatda da obrazı yaradılıb və bu da gənc nəslin vətənpərvərlik tərbiyəsinin formalaşmasında mühüm rol oynayan amillərdən biridir. Abidənin açılışından sonra bağça uşaqlarını, məktəb şagirdlərini həmin abidənin ziyarətinə aparmaq lazımdır.

**Azərbaycanda yəhudi əsilli vətəndaşa heykəl qoyulması, eyni zamanda, ölkəmizin multikultural, tolerant bir ölkə olmasını da bir daha dünyaya göstərir. Düşünürəm ki, abidənin açılması hadisəsi yalnız Azərbaycanda deyil, xarici ölkələrdə də yaxından izləınəcək və Azərbaycan dövlətinin öz qəhrəmanına münasibəti təqdir ediləcək" - deyə qeyd edən V.Abışovun sözlərinə görə, ölkəmizdə qəhrəmanlıq ənənələrinin təbliğində Milli Qəhrəmana qoyulan abidə mühüm əhəmiyyət daşıyır.**




*"Albert Aqarunova abidə ucaldılması həm Azərbaycan və yəhudi xalqlarının bir-birinə qırılmaz tellərlə bağlı olduğunu, həm də dövlətimizin öz qəhrəmanına bəslədiyi ehtiramı göstərir"*

***İradə SARIYEVA***

# Deputat Azərbaycan universitetləri nəzdində fabrik-zavodların yaradılmasını təklif edir

**Məlum olduğu kimi, növbəti parlament seçkilərinə qədər Azərbaycanda "Ali təhsil haqqında" qanun layihəsinin qəbul olunması nəzərdə tutulur. Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü Sona Əliyeva"Ali təhsil haqqında" qəbul olunacaq qanun layihəsi ilə bağlı mətbuata bir sıra diqqətçəkən fikirlər bildirib.**



## *Sona Əliyeva: "Bunun üzərində müzakirələr gedir və həmin müzakirələrə uyğun olaraq yəqin ki, yaxşı bir nəticə ola bilər"*

S.Əliyevanın qeyd etdiyinə görə, burada əsas məsələlərdən biri universitetlərin istehsalata inteqrasiyası, eyni əsaslı sənayenin formalaşdırılmasıdır. O bildirib ki, inkişaf etmiş ölkələrdə artıq bu formalar tətbiq olunur. Millət vəkinin sözlərinə görə, xarici universitetlərin nəzdində fabrik və zavodlar var, Türkiyədə bir çox universitetdə xəstəxanalar belə fəaliyyət göstərir. Beynəlxalq təcrübədən istifadə edərək bizdə də dünyada sınaqdan keçirilmiş modellərin tətbiqi vacibdir.

Millət vəkilinin bəhs etdiyi məsələ diqqətimizi çəkdiyi üçün onunla əlaqə saxladıq. Sona Əliyeva "Bakı-Xəbər"ə bildirdi ki, ali məktəblərin nəzdində zavod və fabriklər açılarsa, bu olduqca perspektivli olar. "Ümumiyyətlə, "Peşə təhsili haqqında" Qanunda belə bir məsələ öz əksini tapıb ki, peşə təhsili müəssisələri ilə özəl sektorlar əlaqələndirilsin. "Ali təhsil haqqında" qanun layihəsi isə hələ tam hazır olmadığı üçün, bu barədə ətraflı fikir bildirə bilmərəm. Ancaq bu nəzərdə tutulur. Yəni hansı tətbiq formasında olacağı dəqiq deyil. Ümumiyyətlə, dövlətin hər hansı bir formadasa özəl sektorun təhsillə əlaqələrini daha da yaxşılaşdırması, gücləndirməsi, özəl sektorun təhsilə sərmayə qoyması, onunla bağlı müəyyən güzəştlərin tətbiq edilməsi məsələsi barədə parlament düşünür. Yəni parlament düşünür ki, qanunvericilik şəklində necə bir tətbiq forması tapılsın və buna özəl sektor meyllənsin. Özəl sektor həm gələcəkdə tələbələrin təhsil haqlarını ödəsin, həm də gələcəkdə özü üçün mütəxəssis hazırlasın. Bilirsiniz ki, başqa ölkələrdə bütün bələdiyyələrin, bir çox xarici ali məktəbin nəzdində fabrik-zavodlar fəaliyyət göstərir, belə müəssisələr bizim ali məktəblərin nəzdində fəaliyyət göstərərsə, çox yaxşı olar. Bizim ali məktəblərin hansındakı ixtisaslar birbaşa sənaye, istehsalatla bağlıdır, onların fəaliyyətlərində belə bir məsələ olarmı, bu mümkündürmü? Bunu düşünürük. Bu sahədə beynəlxalq təcrübə var. Bununla bağlı qabaqcıl, bu sahədə nailiyyətləri olan ölkələrin təcrübəsi, qanunvericilik aktları öyrənilir, tərcümə olunur. Artıq sentyabr ayından bununla əlaqədar müzakirələr olacaq. Əlbəttə, biz nə qədər ki, təhsillə istehsalat arasında bir körpü yaratmamışıq, tələbələrimiz praktik cəhətdən həmişə zəif olacaqlar. Çünki nəzəriyyə nə qədər əsasdırsa, praktika da o qədər əsasdır. Bu baxımdan, təhsilin istehsalatla üzvü bağlılığı olmalıdır".

## *"Bir çox xarici ali məktəbin nəzdində fabrik-zavodlar fəaliyyət göstərir"*

S.Əliyeva qeyd etdi ki, Azərbaycanda özəl sektor istehsalat sahəsində inkişaf edir və özəl sektorun qida, ərzaq, tekstil və s. istehsalı sahəsində ölkəmizdə kifayət qədər yaxşı nümunələr var. Millət vəkilinin sözlərinə görə, müsbət nəticələri olan özəl sektoru təhsillə əlaqələndirmək lazımdır: "Əlbəttə, qanunvericilikdə onlarla bağlı müəyyən güzəştlər nəzərdə tutulsa, gələcəkdə özəl sektor bu sahəyə maraq göstərər. Məktəbəqədər təhsilin stimullaşdırılması ilə bağlı bir neçə il əvvəl özəl məktəbəqədər təhsil müəssisələri 10 il müddətinə vergidən azad olundu. Bu və ya digər formada bu məsələ özəl sektora da tətbiq edilməlidir. Hazırda əlimizdə bir forma yoxdur. Bunun üzərində müzakirələr gedir və həmin müzakirələrə uyğun olaraq yəqin ki, yaxşı bir nəticə ola bilər. İstehsalat praktikası ilə təhsil müəssisələrini əlaqələndirmək lazımdır. Hazırda həm ali məktəblərin imtiyazları yoxdur, həm də elə bir büdcəyə malik deyillər ki, özləri hər hansı bir fabrik-zavod, sənaye müəssisəsi qursun, istehsalat sahəsi açsın. Amma bunu kiçik şəkildə etmək olar. Onların öz tədqiqatları olsun və bu tədqiqatların gələcəkdə özəl sektorda inteqrasiyası təmin olunsun. Yəni bununla bağlı müxtəlif formalar var, bu formalar üzərində düşünüb və bunu qanunvericilyə salmaq, oradan yola çıxaraq bu bağlılığı təmin etmək lazımdır".

*İradə SARIYEVA*

# Kişilər arasında psixi xəstəliklər artır - qorxulu sosial fenomen...

**Azərbaycanda son 5 il ərzində psixi və davranış pozuntuları olan (psixoaktiv maddələrin qəbulu ilə bağlı pozuntular istisna olmaqla) xəstələrin sayı açıqlanıb. Dövlət Statistika Komitəsinin yaydığı məlumatda qeyd olunur ki, son 5 ildə ilk dəfə qoyulmuş diaqnozla qeydə alınmış xəstələrin sayı 22 406 nəfərdir:**

"Onlardan 15 476 nəfərini kişilər, 6 930 nəfərini qadınlar təşkil edib. Son 5 ildə 0-17 yaş aralığında ilk dəfə bu diaqnoz qoyulan xəstələrin sayı 6908 nəfər, 18-29 yaş aralığında olan xəstələrin sayı 7598 nəfər, 30 yaş və yuxarı yaşlıların sayı 7900 nəfərdir".

Son illər ərzində psixi xəstəliklərdən əziyyət çəkənlərin sayının artması təəssüf doğurur. Qadınlarla müqayisədə kişilər arasında psixi xəstəliklərin nə səbəbdən artdığını araşdırmaq məqsədilə mütəxəssislərə müraciət etdik.

Psixoloq Könül Vaqifqızı bizimlə söhbətində qeyd etdi ki, psixi problemləri olan insanların və bununla bağlı xəstəliklərin artım tendensiyası bu gün tək Azərbaycanda deyil, bütün dünyada müşahidə olunmaqdadır: "Psixi problemi olan insan da digərləri kimi normal insandır. Və hansısa qeyri-adi özəlliyi yoxdur. Buna görə də onu cəmiyyətdən təcrid etməyə dəyməz. Amma Azərbaycanda bu məsələyə yanaşma fərqlidir. Belə bir problemi olan insanların reabilitasiyası aparılmır. Yəni psixi problemi olan o demək deyil ki, elə ancaq psixotrop dərmanlar qəbul etməli, ağır doza altında gün ərzində o, yalnız dərmanlar vasitəsilə sakitləşdirilməlidir. Bu, müalicə metodu deyil. Dünya praktikasında psixi problemli insanların müalicəsi üçün reabilitasiya metodu tətbiq edilir. Bu nə deməkdir? Belə insanların müalicəsi cəmiyyətin içində aparılır. Yəni xüsusi olaraq hansısa stasionar mərkəzlərə qəbul etmədən müalicə prosesi insanlarla qarşılıqlı ünsiyyət əsasında həyata keçir. Belə olduqda isə hər kəs bu kimi müalicə növlərinə normal yanaşar və qarşı tərəfi cəmiyyətdən kənarlaşdırmaz".

Həmsöhbətimizin sözlərinə görə, təşvişli psixi pozuntulardan əziyyət çəkən insanlar özlərində daim emosional gərginlik hiss edir, daim nə isə pis bir hadisənin baş verəcəyini gözləyirlər. Belə xəstələrdə, eyni zamanda, təngnəfəsliyin yaranması, ürək döyüntüsünün dəyişməsi, tərləmə halları baş verir: "Panik pozuntulardan əziyyət çəkən insanlarınsa 2-3 dəqiqə ərzində sanki nəfəsləri dayanır. İnsan həmin an fikirləşir ki, mən ya öləcəyəm, ya da dəli olacağam. 2-3 dəqiqədən sonra bu hal ötüb keçir. Belə xəstələr öz səhhətlərindəki bu narahatlığa görə kardioloq, nevropatoloq və endokrinoloqlara müraciət edirlər. Amma həmin həkimlərin müayinələri zamanı heç bir mənfi hal aşkarlanmır, analizlərin nəticələri normal olur".

## *Könül Vaqifqızı: "Qadın davranışlarının kökündə irrasionallıq və emosionallıq dayanırsa..."*



Kişilər arasında psixi xəstəliklərin artmasına gəlincə, psixoloq qeyd etdi ki, insanın beynində formalaşan bütün düşüncələr davranışları sayəsində qarşı tərəfə sərgilənir: "Davranışınsa 3 növü var: rasional, emosional və irrasional. Kişilərdə rasionallıq, qadınlarda daha çox irrasional və emosional davranış müşahidə olunur.

Hər hansı işi sevə-sevə yerinə yetirdiyimiz zaman məhsuldarlıq daha çox olur. Odur ki, emosionallığı qadınlarda keyfiyyət rəmzi kimi qiymətləndirmək olar. İrrasionallıq isə qərarsızlıqdır. Hər hansı bir elmin təkmilləşməsi və inkişaf etməsi üçün sorğu-suallar yaranır. Həmin sualların cavablarının tapılması nəticəsində elm inkişafa doğru gedir.

Kişilərə isə daha çox rasionallıq xasdır. Dolayısı ilə qadın davranışlarının kökündə irrasionallıq və emosionallıq dayanırsa, təbii ki, onlarda emosionallıq kişilərdən daha çoxdur. Məlumdur ki, qadınlar kişilərə nisbətən daha tez depressiyadan çıxır".

*Günel CƏLİLOVA*

# Son dövrlər çəkilmiş bədii filmlər kinoteatrlarda təqdimata niyə çıxarılmır?

**Paytaxtımızda həm iri ticarət mərkəzlərinin nəzdində, həm də müstəqil olaraq bir neçə kinoteatr fəaliyyət göstərir. Bu gün həmin kinoteatrlarda əsasən xarici filmlər nümayiş olunur. Bununla yanaşı, son dövrlər özəl prodakşınlar tərəfindən çəkilən ucuz komediyalar da kinoteatrlarda nümayiş olunan nümunlər sırasındadır.**




## ***Müşfiq Hətəmov:*** *"Təəssüflər olsun ki, bu məsələ bizdə qanunla tənzimlənmir"*

## ***Aydın Xan Əbilov:*** *"Kinoteatrlarda Azərbaycan filmlərinin nümayiş faizi 40-dan aşağı olmamalıdır"*

Demək olar ki, vaxtaşırı olaraq Bakı kinoteatrları tərəfindən həmin filmlərin reklamları həyata keçirilir və tamaşaçılar bu filmlərə baxmaq üçün dəvət edilir. Bildiriləndə görə, belə filmlərin kifayət qədər tamaşaçı auditoriyası var.

Paytaxta fəaliyyət göstərən "Nizami" kinoteatrının, "Park Sinema"nın, "Sinema Plus"un, "Park Bulvar Sinema"nın rəsmi saytlarında gün ərzində bu kino mərkəzlərinin tamaşaçılara təklif etdikləri filmlərin siyahısına baxarkən məlum oldu ki, burada yalnız Azərbaycan dilinə çevrilmiş xarici filmlər nümayiş olunur. Halbuki, xarici filmlərlə paralel olaraq kinoteatrlarda son illər çəkilən Azərbaycan filmlərinin də nümayiş olunması arzuediləndir.

Onu da bildirək ki, 2010-cu ildən bəri "Azərbaycanfilm" kinostudiyası tərəfindən dövlət büdcəsindən ayrılan vəsait hesabına xeyli sayda film çəkilib. "Əlavə təsir", "İstanbul reysi", "Kabusun gözüylə", "Kuklalar", "Qardaşımdan yaxşısı yox idi", "Sahə", "Vəkil hanı?", "Yarımçıq xatirələr", "Sübhün səfiri", "Nar bağı", "Nabat", " Mən evə qayıdıram", "Qırmızı bağ", "İçərişəhər", "İlahi məxluq", "Xeyirlə şərin rəqsi", "Dolu" və sair filmlər son 9-10 ildə ərsəyə gələn ekran əsərləridir. Kiçik istisnaları nəzərə almasaq deyərdik ki, Azərbaycan tamaşaçıları bu filmlərdən xəbərsizdir. Çünki bu filmlərin nümayişinə paytaxt kinoteatrlarında yer ayrılmır. Bir-iki filmi çıxmaq şərtilə, demək olar ki, qalan filmləri tamaşaçılar heç görməyib, sadəcə, onların adlarını eşidiblər.

Bəzi ekspertlər hesab edirlər ki, Bakı kinoteatrlarında son illər çəkilən Azərbaycan filmlərinin nümayiş olunmamasının səbəbi yerli tamaşaçıların filmlərimizə marağının olmaması ilə bağlıdır. Ekspertlər bildirirlər ki, həmin kinoteatrlar kommersiya şirkətləridir və şəxsi mülkiyyət hesab olunur. Onların nümayiş etdirdikləri xarici filmlərin kinoteatrlara daha çox gəlir gətirdiyini deyən ekspertlərin sözlərinə görə, həmin şirkətləri yerli filmlərin nümayişinə sövq etmək üçün ilk növbədə onlara Mədəniyyət Nazirliyi tərəfindən vergi məsələsində güzəştlər edilməlidir.

Onu da bildirək ki, kinoteatrlardan yalnız "Nizami" Kino Mərkəzi dövlət mülkiyyətidir, burada isə arabir Azərbaycan filmləri göstərilir. Onlar qeyd edirlər ki, "Nizami" Kino Mərkəzində həftəlik olaraq filmlər nümayiş olunur, ancaq buna baxmayaraq, tamaşaçılar yerli filmlərimizi izləməyə gəlmirlər. Ekspertlər hesab edirlər ki, "Azərbaycanfilm" kinostudiyası, eləcə də filmlərin prodüsserləri paytaxt kinoteatrları ilə əməkdaşlıq qurmalı və Azərbaycan filmləri reklam edilməlidir ki, tamaşaçıların o filmlərə tələbatı artsın, onlar bilet alıb həmin filmlərə baxmağa gəlsinlər.

Paytaxt kinoteatrlarında Azərbaycan filmləri niyə nümayiş olunmur? Bu, filmlərimizə tamaşaçı marağının az olması, yoxsa başqa amillərlə bağlıdır?

"Azərbaycanfilm" kinostudiyasının direktoru Müşfiq Hətəmov "Bakı-Xəbər"ə bildirdi ki, artıq bu məsələ ilə bağlı qanun layihəsi olmalıdır. M.Hətəmovun sözlərinə görə, dünyanın hər yerində filmlərin nümayişi qanun çərçivəsində həyata keçirilir: "Qanunvericiliyə əsasən, filmlərin televiziyalarda və kinoteatrlarda yayım saatları olur. Təəssüflər olsun ki, bu məsələ bizdə qanunla tənzimlənmir. Son iki ildir "Azərbaycanfilm"də tammetrajlı bədii filmlər çəkilmir, daha çox qısametrajlı filmlər çəkirik. Əvvəl çəkdiyimiz tammetrajlı filmlər kinoteatrlarda nümayiş olunub. Hər il çəkilən yeni film kinoteatrlarda göstərilir. Biz kinoteatrlara hansı filmi təqdim edirik, onu nümayiş etdirirlər, lakin son iki ildə kinoteatrlara film təqdim etməmişik. 4 yeni tammetrajlı bədii filmin çəkilişlərinə təzə başlamışıq".

M.Hətəmovun sözlərinə görə, kinoteatrlar özlərini saxlamaq üçün gəlir əldə etməlidirlər, bu səbəbdən onlar xarici filmlərə üstünlük verirlər. M.Hətəmovun bildirdiyinə görə, kinoteatrlar yerli distribüter şirkətlərilə müqavilə bağlayır və buna əsasən də xarici filmlərin nümayişini təşkil edirlər. M.Hətəmov bəzi ekspetlərin Azərbaycan filmlərinin kinoteatrlarda nümayiş edilməməsi ilə bağlı "Azərbaycan filmlərinə tamaşaçı marağı yoxdur" fikrini təkzib edərək bildirdi ki, filmlərimizin tamaşaçı problemi yoxdur: "Bu, birmənalı olaraq, həqiqət deyil. Azərbaycan filmlərinin tamaşaçı auditoriyası var".

Yazıçı-kulturoloq Aydın Xan Əbilovun fikrincə isə vaxtilə bütün dünyada belə bir problem olub. O vurğuladı ki, ABŞ filmləri Qərb və Avropa ölkələrini, Hindistan filmləri isə SSRİ respublikalarını zəbt etmişdi. Azərbaycan cəmiyyətində Hindistan, İran və Türkiyə filmləri daha populyar olub. "Yeni nəsil isə ata-babalarının baxdığı filmlərə yox, məhz xarici filmlərə meyl göstərir. Onların düşüncə tərzi, estetik baxışları tamamilə fərqli olduğu üçün, onlar dünya tamaşaçılarının baxdığı filmlərə maraq göstərirlər. Xüsusən də 100 milyonlarla büdcəsi olana filmləri daha çox sevirlər. Azərbaycan filmlərinə gəlincə, deyim ki, həm klassik, həm də müasir Azərbaycan filmləri internet və televiziyalar vasitəsilə çox yüksək baxışla izlənir. Fikir versəniz görərsiniz ki, milyonlarla baxışı olan filmlərimiz var. Yeni çəkilən və bizim "bozbaş" adlandırdığımız yüngül komediya filmlərinə baxışlar hədsiz dərəcədə çoxdur. Klassik filmlərimizə də həmçinin. Bu filmlər geniş nümayiş olunduğuna görə onlara kinoteatrlar elə də maraq göstərmirlər. Ümumiyyətlə, kinofilmlərin nümayişi bir qədər teatrlaşdırılmalıdır. Biz ancaq o teatrlaşdırmaları təqdimat mərasimlərində görürük. Amma bütün dünyada film kinoteatrlara çıxmamışdan əvvəl onların trillerləri hazırlanır, videorolik vasitəsilə internetdə və telekanallarda onlar reklam edilir, durmadan sosial şəbəkələrdə piar olunur. Ondan sonra insanlar gedib həmin filmlərə kinoteatrlarda baxırlar. Kinoteatrlarda göstərilən filmlərə baxmaq insanlarda həddən artıq gözəl təəssürat yaradır. Təəssüflər olsun ki, bizdə hələ bu mədəniyyət formalaşmayıb. Üstəlik də yerli filmlərin nümayişində müəllif və əlaqəli hüquqlarla bağlı problemlər də var. Məsələn, televiziyalarda və internetdə yayımlanan filmlərin çoxu müəllif və əlaqəli hüquqlara şamil olunur. Hesab edirəm ki, Azərbaycan kinoteatrları filmlərimizin nümayişinə üstünlük verməli və tamaşaçıları bu filmlərə cəlb etməlidirlər. Qeyd edim ki, bəzi ölkələrdə hətta Amerika filmlərinin kinoteatrlarda nümayişinə qadağalar var. Fikrimcə, xarici filmlərin kinoteatrlarda geniş yayımına Azərbaycanda da qadağalar tətbiq edilməli, digər tərəfdən də kinoteatrlarda Azərbaycan filmlərinin nümayiş faizi 40-dan aşağı olmamalıdır" - deyə A.X.Əbilov vurğuladı.

***İradə SARIYEVA***

№ 157 (4055) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

6 SENTYABR 2019-cu il

www.baki-xeber.com

# İnsanı ağcaqanaddan tamamilə qoruyan geyim...

**Braun Universitetinin alimləri tərəfindən qrafen oksid əsasında hazırlanmış geyim insanı ağcaqanadlardan tamamilə qoruyur.**

Həşəratlar insanı "hiss etmir". "Teleqraf.com" xəbər verir ki, alimlər əvvəlcə insanı zəhərli kimyəvi preparatlardan qoruya bilən geyim üzərində işləyiblər. Amma məlum olub ki, qrafendən hazırlanmış parça, həmçinin insanı ağcaqanadlardan qoruyur. Həmçinin



həşəratların öz xortumu ilə qrafen geyimin ən nazik qatını deşə bilmədiyi məlum olub. Bundan başqa, parça hər iki istiqamətdə baryer rolunu oynayır: kimyəvi siqnalları buraxmır, nəticədə ağcaqanadlar insanı hiss etmir və ona yaxınlaşmırlar. Lakin materialın çatışmazlığı da var: məlum olub ki, sözügedən geyim yalnız quru olduqda ağcaqanadlardan qoruyur. Belə ki, parça cüzi islanan kimi öz qoruyucu xüsusiyyətlərini itirib. Braun Universitetinin alimlərinin yeni həlli sınaqlardan uğurla keçdiyi təqdirdə, qlobal səhiyyə sisteminə müsbət təsir göstərə bilər. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ağcaqanadlar hər il milyonlarla ölümə səbəb olur, çünki müxtəlif xəstəliklərin daşıyıcılarıdırlar.

## Elan

Cəbrayılov Elxan Hafiz oğluna məxsus, Bakı şəhəri, Sabunçu rayonu, Ləhiş bağlar massivində yerləşən №3513a bağın №37882 saylı müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Cəbrayılov Telman Hafiz oğluna məxsus, Bakı şəhəri, Sabunçu rayonu, Ləhiş bağlar massivində yerləşən №3513 bağın №15631 saylı müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Cabbarov Valeh Vaqif oğluna Müdafiə Nazirliyi tərəfindən verilmiş veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

İsayeva Nazilə Rəsul qızınını adına, Bakı şəhəri, Türkan qəsəbəsi üzümçülük savxozunda 0.10 ha torpaq sahəsinə Abşeron rayon XDS icraiyyə komitəsi tərəfindən verilmiş 11.04.1991-ci il tarixli, 63 nömrəli qərar itdiyi üçün etibarsız sayılır.

Aslanov Seymur Fərhad oğluna məxsus, Bakı şəhəri, Nəsimi rayonu, 20 Yanvar küçəsi, 23"b" ünvanının çıxarışı (№008011002179-05301-083004) itdiyi üçün etibarsız sayılır.

Quliyev Rauf Hümbətoviçin adına, Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, M.Əliyev küçəsi, döngə №4, ev №1 ünvanının HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır

Hüseynova Məxfirət Sahib qızına Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Heydərzadə Səmədər Sərvər oğluna Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş №913 xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Səlimova Rəsmiyyə Yadulla qızının adına, Abşeron rayonu, Fatmayı kəndində yerləşən torpaq sahəsinə torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə JN-142A kod 30803018 itdiyi üçün etibarsız sayılır.

Yarəliyeva Nərgiz Qəzənfər qızının adına, Bakı şəhəri, Yasamal rayonu, Musabəyov y/sahəsi, Kamal Rəhimov küçəsi, ev 15, mənzil 34 ünvanının çıxarışı (seriya RX №0063747) itdiyi üçün etibarsız sayılır.

İbrahimova Gülarə Mayıl qızının adına, Bakı şəhəri, Qırmızı Şərq küşəsi, ev 332, mənzil 62 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Kazımova Yeganə Rəşid qızına Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri bələdiyyəsi tərəfindən 13 may 2004-cü tarixində verilmiş 13,75 kv.m. torpaq sahəsinin qərarı itdiyi üçün etibarsız sayılır.

## Kişilər ağrılara qadınlardan daha kəskin reaksiya verirlər

**Kişilər qadınlara nisbətən təkrar ağrıya daha şiddətli reaksiya verirlər. Buna səbəb kişilərin əvvəlki ağrını yadda saxlamasıdır.**



"E-tibb.az" bildirir ki, bunu Toronto və Makgill universitetlərinin alimləri sübut ediblər. Alimlər siçanlar və könüllü insanlar üzərində bir sıra eksperiment aparıblar. Kişilərin bədəninə yüngül yanıq xəsarəti yetirib, sonra isə ağrını 100 ballıq sistemlə dəyərləndirmək təklif olunub. Siçanlara gəlincə, onların ağrını hiss etməsi yanan əşyadan necə sürətlə uzaqlaşmaları əsasında müəyyənləşib. Bir gün sonra sınaq təkrar olunub. Eyni şərtlərlə aparılan sınaqda kişilər daha çox ağrı hiss etdiklərini deyiblər. Oxşar vəziyyət erkək siçanlarda da qeydə alınıb (yanan əşyadan sürətlə uzaqlaşma prinsipi). Alimlər belə qərara gəliblər ki, bu, kişilərin əvvəlki ağrını yaddaşlarında saxlamasından və onu gözləməsindən irəli gəlir. Siçanlara əvvəlki ağrını unutduran maddə vurulduqdan sonra, onların hiperhəssaslığı itir. Alimlər hesab edir ki, bu sınaqlar xroniki xəstəlikləri müalicə etdikdə əhəmiyyətli olacaq.





**Qoç** - Fenomenal iş qabiliyyətiniz sizin uğurunuzun açarıdır. Enerji və inadkarlıq tələb edən işlərdə sizin rəqibiniz yoxdur. Yorulmaq nə olduğunu bilmirsiniz, eyni işlə uzun müddət məşğul olsanız da, bezmirsiniz.

**Buğa** - Bu gün hansısa qeyri-adi təcrübə qazanmağınızla bağlı ola bilər. Sizin həyatınızda baş verən hadisələri məntiqlə və sağlam düşüncə ilə izah etmək olmur. Lakin yadda saxlayın ki, baş verənlərə görə məsuliyyət sizin üzərinizə düşəcək.

**Əkizlər** - Xarici təsir qarşısında həssassınız və arada sizə təzyiq göstərmək istəyən insanlar qarşısında müdafiəçizsiniz. Yanınızda çox yumşaqlıq etməyə, güzəştə getməyə yol verməyən insan olsa yaxşıdır.

**Xərçəng** - Bütün vacib işlərinizi günün birinci yarısında başa vurmağa çalışın, çünki, günün ikinci yarısı daha faydalı olacaq. İşgüzar münasibətlər həddən artıq qeyri-sabitdir. Anlaşılmazlıqlar da ola bilər.

**Şir** - Ev qayğıları o qədər çox olacaq ki, şirlərin bəzi nümayəndələrinin fikri işdən yayınacaq. Bəzi pis niyyətli insanlar bu vəziyyətdən yararlanmaq istəyəcəklər. Bundan başqa, özünüzə qarşı rəhbərliyin hiddətini cəlb edə bilərsiniz, nəticələr isə pis olacaq.

**Qız** - Günün birinci yarısı işlə məşğul olmaq üçün əla vaxtdır. Siz vaxtında təşəbbüslər göstərəcəksiniz, enerjinizi doğru istiqamətdə sərf edəcəksiniz və tərəfdaşlarınızla münasibətlərdə özünüzü müdrik aparacaqsınız.

**Tərəzi** - Həm işgüzar, həm də şəxsi məsələlərdə yaranmış problemlərin öhdəsindən asanlıqla gəlirsiniz. Əks cinsin nümayəndələri sizə yüksək maraq göstərirlər. Bu gün romantik münasibətlərin başlanğıcı üçün uyğundur.

**Əqrəb** - Bu gün bir qədər uğursuzdur. Neqativ tendensiyalar sizi axşama qədər izləyə bilər. Ətrafdakıların diqqətini özünüzə cəlb etməyə çalışırsınız, lakin bu, baş verəndə sizin xoşunuza gəlmir.

**Oxatan** - Qarşıda qoyulmuş məqsədlərə çatırsınız, bu isə sizi daha da ruhlandırır. Yaradıcılıq imkanlarınız geniş olduğuna görə, gözəl ideyalar baxımından çatışmazlıq olmayacaq.

**Oğlaq** - İnsanlarla qarşılıqlı anlayışa nail olmaq, lazım olan sözləri demək çətin olacaq. Məhz bu hal əvvəlcədən əldə olunmuş razılaşmaların ləğv olunmasına, işgüzar və şəxsi münasibətlərin pozulmasına səbəb ola bilər.

**Dolça** - Uğurların asanlıqla qazanıldığı, heç bir problem üzərində uzun müddət düşünməyə ehtiyac olmadığı xoş bir gündür. Demək olmaz ki, bu gün mühüm qələbələrlə yadda qalacaq, lakin siz baş verənlərdən razı qalacaqsınız.

**Balıqlar** - Həyat potensialının yüksəlməsi ilə bağlı bir gündür. Bu da sizə xoş əhval, işgüzarlıq və enerji bəxş edəcək. Qələbə çaldığınızda belə, narahatlığınız sona çatmayacaq və emosional dəstəyə ehtiyac duyacaqsınız.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

nar

Gəlin birlikdə böyüyək

## "Nar" abunəçilərinin nəzərinə!

**17.09.2019-cu il tarixindən etibarən** "XL", "2XL", "3XL", "XL Moderm", "2XL Moderm" internet paketlərində dəyişikliklər olacaq. Daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək olar.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.